www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 13 may 2015-ci il Çərşənbə № 102 (6130) Qiymәti 40 qəpik

**Xəbər**

## Növbəti iqtidar-müxalifət görüşünün vaxtı məlum oldu

yazısı səh.6-da

**Gündəm**

### Kremldən Bakıya növbəti Qarabağ şantajı



Separatçı bölgədəki 3 may "seçkiləri" Rusiyanın ərazi bütövlüyümüzə qarşı ikili münasibətini üzə çıxarıb; bu yanaşma müharibə variantında Moskvanın özünü necə aparacağı məsələsini təzədən aktuallaşdırır

yazısı səh.11-də

### Müsavatdan çıxarılan şəxslər partiyanı məhkəmə ilə hədələdilər

yazısı səh.5-də

### Konstitusiya Məhkəməsi dollar krediti ilə bağlı qərarı yubadır

yazısı səh.10-da

### "Qaz savaşı": əsas rəqabət ABŞ və Rusiya arasındadır

yazısı səh.9-da

### Məhkəmə medianews.az-a qarşı iddianı rədd etdi

yazısı səh.4-də

### Həbsdəki jurnalistlərin şikayəti təmin olunmadı

yazısı səh.2-də

### İcra başçısının oğlu məhkəmə zalında həbs edildi

yazısı səh.4-də

### Tanınmış diplomatın qardaşı oğlu faciəli şəkildə öldü

yazısı səh.4-də

### Bulvarda qiymətlər yay gəlməmiş qalxıb

yazısı səh.10-da

### Azərbaycan-Türkiyə birgə təlimləri başladı

yazısı səh.11-də

### OPEK-dən neftlə bağlı bədbin proqnoz

yazısı səh.15-də

### Azərbaycanda yalançı imamlar və reallıq...

yazısı səh.13-də

## Avropa Oyunlarından sonra kimlər gedəcək - ilkin siyahı

# İQTİDARIN "TALANA SON" PLANI - ŞOK TƏFƏRRÜATLAR

İqtidar prosesi Avropa Oyunlarından sonraya saxlamaq niyyətində olub, amma üzə çıxan faktlar, büdcənin zəiflədiyi bir vaxtda bəzilərinin dövlətin puluna xor baxmaları prezidenti qəti qərarlar verməyə vadar edib; siyahıda kimlərin adı var?




yazısı səh.8-də

## Azərbaycan qlobal güclərin çarpaz təzyiqi altında

Rəsmi Bakı üçün kritik həftə; bu ay hakimiyyətin həm Rusiya, həm də ABŞ-la münasibətləri növbəti və sərt sınaqdan keçməlidir; Patruşevlə Malinovskinin Bakı səfərləri arasında hansı əlaqə var?

yazısı səh.9-da



### Türkiyədə şouda maşın qazanan aparıcı AzTV-dən qovulur

yazısı səh.13-də




### Bayraq Meydanı İdarəsinin keçmiş rəisi həbs edildi

yazısı səh.7-də




### Ekspertdən yeni parlamentin tərkibi ilə bağlı maraqlı proqnoz

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015



## Lavrov Kerriyə pomidor bağışladı

**Rusiya xarici işlər naziri Sergey Lavrovun ABŞ Dövlət katibi Con Kerri ilə Soçidə görüşü baş tutub. Rusiya KİV-i xəbər verir ki, yarım saat çəkən görüşdən sonra "Vətən" mehmanxanasında nahar edən iki dövlət rəsmisi müzakirə edilən məsələlərlə bağlı şərh verməkdən imtina ediblər.**

Nahar zamanı diqqət çəkən maraqlı məqam isə Lavrovun Con Kerriyə Krasnodar pomidor və kartofu, həmçinin Qələbənin simvolunu özündə əks etdirən köynək hədiyyə etməsi olub.

## DQİDK qeydiyyatdan keçən dini icmalara şəhadətnamə verdi



Mübariz Qurbanlı

**Mayın 12-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) qeydiyyatdan keçmiş bir qrup dini icmaya şəhadətnamələr təqdim edilib. Toplantıda Dövlət Komitəsinin rəhbərliyi, şöbə müdirləri və yeni qeydiyyatdan keçmiş dini icmaların sədrləri iştirak ediblər.**

Yeni qeydiyyatdan keçmiş dini icmaların sədrlərinə müvafiq tövsiyələr verən komitə sədri Mübariz Qurbanlı onların yerlərdə axund və imamlarla, eləcə də QMİ-nin nümayəndələri ilə qarşılıqlı əməkdaşlıq və fəaliyyətinin zəruriliyini vurğulayıb.

Eyni zamanda M.Qurbanlı dini icma sədrlərinə rəhbərlik etdikləri icmaların milli-mənəvi dəyərlərimizin təbliği və radikalizmə qarşı mübarizə istiqamətində fəaliyyət göstərmələrini, ümummilli maraqlardan çıxış etmələrini tövsiyə edib.

Dini icma sədrləri çıxış edərək dini sahəyə göstərdiyi diqqət və qayğıya görə prezident İlham Əliyevə təşəkkürlərini bildiriblər.

Sonda qeydiyyatla bağlı şəhadətnamələr dini icma sədrlərinə təqdim olunub.

## BDU-nun bəzi tələbələrinin imtahan vaxtı dəyişdirildi

**"Bakı - 2015" Avropa Oyunlarına Bakı Dövlət Universitetindən qoşulan tələbələr qonaqların qəbul olunması, idman sahəsində iş görülməsi, media üzvlərinə və fəxri qonaqlara kömək göstərilməsi kimi 250 müxtəlif vəzifəni yerinə yetirəcəklər.**

BDU-nun mətbuat və informasiya şöbəsinə istinadən bildirir ki, könüllülərin oyunlarla bağlı hazırlıq dərsləri, məşqləri və digər tədbirləri bu il may ayına çəkilmiş yay imtahan sessiyası ilə üst-üstə düşdüyündən onlar üçün imtahan iyun ayının sonunda keçiriləcək.

Yuxarıda qeyd edilmiş səbəblərdən imtahanlara yaxşı hazırlaşa bilməyən və imtahanda iştirak edə bilməyən könüllülər ərizə ilə müraciət edərək iyun ayında onlar üçün imtahan təşkil olunmasını xahiş ediblər.

Qeyd edək ki, belə ərizə ilə müraciət etmək hər bir tələbənin şəxsi işidir, yəni tələbə imtahanlarda iştirak edə də bilər və bu hüquq BDU-nun 20000 tələbəsindən yalnız könüllülərə şamil edilir.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Mərkəzi Bank yeni qaydalarla işləyəcək

**Azərbaycan Mərkəzi Bankının kapital ehtiyatları ilə bağlı qaydaları dəyişdirilir, yeni öhdəliklər müəyyənləşdirilir.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, bununla bağlı "Azərbaycan Respublikası Mərkəzi Bankı haqqında" Qanuna əlavə və dəyişikliklər təklif olunur.

Qanunun 10.3-cü maddəsinə edilən dəyişikliyə əsasən, Mərkəzi Bankın kapital ehtiyatları artıq tədavülə buraxılmış nağd milli valyutanın 15%-i miqdarında müəyyən edilməyəcək. Əvəzində onun nizamnamə kapitalından az olmamaq şərti ilə hesabat ilinin mənfəətindən ayırmalar hesabına formalaşdırılacaq.

Bundan başqa, qanuna bu 13.2-ci maddə əlavə edilir: "Xarici valyutada və qızılda olan aktiv və passivlərin yenidən qiymətləndirilməsi nəticəsində ilin sonuna yaranan zərərin ödənilməsi Mərkəzi Bankın kapital ehtiyatları hesabına təmin olunur".





Eyni zamanda 14.2-ci maddəyə edilən dəyişikliyə əsasən Mərkəzi Bankın fəaliyyəti nəticəsində yaranmış kapital çatışmazlığı bir maliyyə ili təxirə salınmaqla dövlətin buraxdığı qiymətli kağızlar hesabına ödəniləcək.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və mayın 15-də müzakirəyə çıxarılacaq.

## Mirismayıl Hadi Müsavat Partiyasından istefa verib

**Müsavat Partiyası Məclisinin sabiq üzvü, tanınmış vəkil Mirismayıl Hadi partiyadan istefa verib. Bunu APA-ya açıqlamasında M. Hadi özü bildirib.**

M. Hadi deyib ki, istefasına səbəb son vaxtlar Müsavat Partiyasında gedən neqativ proseslərdir: "Qurultaydan sonra partiya rəhbərliyini ələ keçirmiş bir qrupun yeritdiyi siyasət, partiyanın yaradılmasında və bu günə qədər fəaliyyətində danılmaz rolu olan insanlara qarşı qərəzli münasibət göstərilməsi, əsassız yerə onların partiyaya qarşı xəyanətdə ittiham edilməsi qəbuledilməzdir. Partiyanın rəhbərliyini əldə keçirən həmin kiçik qrupla bir yerdə olmaq, birgə fəaliyyət göstərmək mümkünsüz görünür. Ona görə də mən götür-qoy etdim və partiya sıralarından çıxmağa qərar verdim".

Qeyd edək ki, M. Hadi vaxtilə Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər və hazırkı başqan Arif Hacılının vəkili olub. 2000-ci ildə Mərkəzi Seçki Komissiyasında (MSK) Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi, 2003-cü ildə isə MSK-nın üzvü kimi fəaliyyət göstərib.

## Rauf Mirqədirovun apelyasiya şikayəti təmin edilmədi



**Mayın 12-də Bakı Apelyasiya Məhkəməsi jurnalist Rauf Mirqədirovun həbs müddətinin 4 ay uzadılmasından verdiyi şikayəti təmin etməyib. Bu barədə "Turan"a vəkil Fuad Ağayev bildirib. Vəkil məhkəmənin qərarını qanunsuz adlandırıb. Mirqədirov özü məhkəmədə çıxış edərkən təqsirsiz olduğunu bildirib və bəraət tələb edib.**

F.Ağayev Mirqədirovun səhhətində problemlər olduğunu qeyd edib.

Xatırladaq ki, Mirqədirov 2014-cü il aprelin 19-da Türkiyədən deportasiya edildikdən dərhal sonra Bakıda saxlanılıb. Ona qarşı Ermənistanın xeyrinə casusluq şəklində dövlətə xəyanət ittihamı irəli sürülüb.

## Xədicə İsmayıl Ali Məhkəməyə kasasiya şikayəti verdi

**Mayın 12-də Bakı Apelyasiya Məhkəməsində həbsdə olan jurnalist Xədicə İsmayıl barəsində olan məhkəmə qərarından verilən şikayətə baxılıb. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesdə X. İsmayılın vəkili Yalçın İmanov çıxış edərək, məhkəmənin ilkin baxış iclasının qərarından Ali Məhkəməyə kasasiya şikayəti verdiklərini deyib. Bu səbəbdən məhkəmə prosesi qeyri-müəyyən vaxta qədər təxirə salınıb.**

Xatırladaq ki, ilkin baxış iclası zamanı müdafiə tərəfi məhkəmənin qismən istintaqla aparılması barədə vəsatət verib. Lakin məhkəmə vəsatəti təmin etməyib.

Qeyd edək ki, Elman Həsənov (Türkoğlu) X. İsmayılın facebook sosial şəbəkəsində onun şərəf və ləyaqətini alçaltdığını və böhtan xarakterli məlumat yaymasını əsas gətirərək, Binəqədi Rayon Məhkəməsinə müraciət edib. Binəqədi Rayon Məhkəməsi isə X. İsmayılın 2500 manat cərimələnməsi barədə qərar çıxarıb.

X. İsmayılın vəkilləri həmin qərardan apelyasiya şikayəti veriblər.

## Daha bir doğuş faciəsi: gənc qadın öldü

**Salyanda ana doğuş zamanı dünyasını dəyişib. Virtualaz.org saytının Şirvan bürosunun müxbiri xəbər verir ki, Neftçala rayon sakini, 1981-ci il təvəllüdlü Səidə Oqtay qızı Məlikova Salyan Rayon Mərkəzi Xəstəxanasının doğum şöbəsində dünyasını dəyişib. Qadın doğuşdan sonra aparılan əməliyyat zamanı keçinib.**

Doğulan uşaq isə sağlamdır. 34 yaşlı Səidə Məlikova iki azyaşlı uşaq anası olub.

Faktla bağlı Salyan Rayon Prokurorluğunda araşdırmalara başlanıb.

## Bakıda gizli quş əti sexi aşkarlandı

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Bakı Şəhər Baytarlıq İdarəsi keçirdiyi reyd zamanı Sabunçu rayonu Ramana sovxozu ərazisində yerləşən Vüsal Vahid oğlu Abdullayevə məxsus həyətdə quş əti hissələrinin çeşidlənmə sexi aşkar edilib.**

Xidmətdən verilən məlumata görə, aparılan araşdırma zamanı obyektin qeyri-qanuni fəaliyyət göstərdiyi və quş ətinin çeşidlənərək emal olunduğu müəyyən olunub. Araşdırma zamanı sexin qeydiyyatı və emal edilən quş ətinin mənşəyinə dair heç bir sənəd təqdim edilməyib.

Reyd zamanı həyətdə olan soyuducuda təqribən 1 tona yaxın quş əti və 4 tona yaxın ətdən ayrılmış quş sümükləri (40-50 kisə) aşkar edilib. Qanunvericiliyə uyğun olaraq sexin fəaliyyəti dayandırılıb.



## Ayaz Mütəllibov 77-də...

### "Ad günümü bir qədəh şərabla keçirdim"

**Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov dünən 77 yaşını qeyd edib. A.Mütəllibov virtualaz.org saytının müxbiri ilə söhbətində deyib ki, o, ad günlərini ənənəyə uyğun olaraq məhdud ailə çevrəsində qeyd etməyə üstünlük verir.**

"Ad günümü oğlumla, gəlinlərimlə, nəvələrimlə bir yerdə qeyd etdik. Spirtli içkiyə qətiyyən meylli deyiləm. Lakin bu gün bir qədəh qırmızı şərabı özümə rəva gördüm" - deyə sabiq prezident bildirib.

**A.Mütəllibov onu da deyib ki, nə 1992-1993-cü illərdə prezident olarkən bir yerdə çalışdığı şəxslərdən, nə də hazırda siyasi fəaliyyətlə məşğul olanlardan heç kim onu doğum günü münasibətilə təbrik etməyib:** "Lakin buna görə heç kəsdən inciyib küsmürəm. Bunun əvəzində ad günüm ərəfəsində daha böyük hədiyyə almışam. Qız nəvəmin övladı, mənimsə nəticəm doğulub. Mən indi ulu babayam. Oğlan uşağına hələ ad qoymamışıq. Amma o, mənim üçün ən böyük ad günü hədiyyəsidir" - deyə sabiq prezident bildirib.

## İsmayıllıda və Ağsuda zəlzələ

**İsmayıllı rayonunda zəlzələ olub. Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən (RSXM) "Trend"ə bildiriblər ki, ilkin məlumatlara əsasən, mayın 12-də yerli vaxtla saat 15:53-də İsmayıllıda zəlzələ qeydə alınıb.**

Episentri yerin 8 km dərinliyində olan zəlzələnin maqnitudası 3,3 təşkil edib. Zəlzələ hiss olunmayıb.

Mayın 12-də günün ikinci zəlzələsi Ağsuda qeydə alınıb. Təkanlar yerli vaxtla saat 15:52-də Pirquludan 14 km cənub-qərbdə, Ağsu rayonu ərazisində baş verib.

Maqnitudası 3.4, dərinliyi 8 km olan bu zəlzələ də hiss olunmayıb.

**Başsağlığı**

**Azər Ayxan, Xaliq İsayev, Yaşar Xəlilov Teymur və Zeynal İmanov qardaşlarına ataları Ağaşərif İmanovun vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

# Günün içindən



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

## Milli Şuranın mitinqinə icazə verildi

**Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) Demokratik Qüvvələrin Milli Şurasının mitinq keçirilməsi ilə bağlı məktubunu müsbət cavablandırıb.**

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən APA-ya daxil olan məlumata görə, meriya "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanunun müddəalarına riayət olunmaqla 16 may 2015-ci il tarixdə saat 15:00-dan 17:00-dək Bakı şəhəri, Yasamal rayonu, M.Seyidov küçəsi, 3155-ci məhəllədə yerləşən Yasamal Rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul" stadionu) mitinqin keçirilməsinə razılıq verib.

Toplantı təşkilatçılarından xahiş olunub ki, "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna əsasən, ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən və təhqiredici şüarlardan istifadə olunmamasına ciddi nəzarət etsinlər.

Bakı Şəhər İcra Hakimiyyəti gələcəkdə planlaşdırılan mitinqlərin şənbə günlərinə təyin olunmasını məqsədəuyğun hesab edib.



## Rus generalı Bakını seyrə çıxdı

**Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, ordu generalı Nikolay Patruşevin başçılıq etdiyi nümayəndə heyəti mayın 12-də Fəxri xiyabanı ziyarət edib.**

ANS PRESS-in məlumatına görə, nümayəndə heyəti Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə əklil qoyub.

Sonra nümayəndə heyətinin üzvləri Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, məzarları üzərinə güllər, "Əbədi məşəl" abidəsinin qarşısına əklil qoyublar.

Buradan qonaqlar Bakının mənzərəsini seyr ediblər.

Daha sonra iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun abidəsi ziyarət olunub, məzarı önünə əklil qoyulub.

# Prezident Türkiyədən gələn nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev mayın 12-də Türkiyənin baş nazirinin müavini Əli Babacanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**



ANS PRESS-in məlumatına görə, Türkiyənin G-20-yə rəhbərliyə seçildiyini və bu mötəbər təşkilatın bütün tədbirlərinə ev sahibliyi edəcəyini vurğulayan baş nazirin müavini Əli Babacan Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan prezidenti İlham Əliyevə həmin tədbirlərdə iştirak etmək üçün dəvətini bir daha diqqətə çatdırıb.

Əli Babacan qardaş Azərbaycanın G-20-nin toplantılarında Türkiyə ilə bərabər olmasının xüsusi önəm daşıdığını deyib. Birinci Avropa Oyunlarına Bakının ev sahibliyi etməsinin əhəmiyyətinə toxunan Əli Babacan yarışların yüksək səviyyədə keçiriləcəyinə əminliyini ifadə edib.

Türkiyənin G-20-yə rəhbərlik etməsini qardaş ölkənin böyük qələbəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın buna çox sevindiyini deyib. Prezident İlham Əliyev bunu həm də dünyanın aparıcı dövlətləri tərəfindən Türkiyənin roluna göstərilən yüksək münasibətin ifadəsi kimi qiymətləndirib.

Azərbaycanı G-20-yə dəvət etdiyinə görə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğana bir daha minnətdarlığını ifadə edən prezident İlham Əliyev bunun dostluğumuzun və qardaşlığımızın bariz nümunəsi, Türkiyə-Azərbaycan birliyini dünyaya nümayiş etdirən başlıca amil olduğunu deyib.

Dövlət başçısı ölkəmizin bu mötəbər görüşə hazırlaşdığını və bununla bağlı bu gün Bakıda xüsusi toplantının keçirilməsinin önəmini də vurğulayıb. Prezident İlham Əliyev bu yaxınlarda Çanaqqala zəfərinin 100 illiyi münasibətilə keçirilən tədbirlərin yüksək səviyyədə təşkil olunmasının və mərasimlərdə dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçılarının iştirak etməsinin əhəmiyyətini məmnunluqla qeyd edib.

Görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirilib və bu əlaqələrin bundan sonra da genişləndiriləcəyinə əminlik ifadə olunub.

# "Azərbaycanlılar Ukrayna uğrunda vuruşmağa hazırdır"

**Krım tatarlarının lideri Mustafa Cəmilov Ukraynada xarici ölkə vətəndaşlarının hərbi əməliyyatlara cəlb olunması ilə bağlı qanunu dəstəkləyib. Modern.az xəbər verir ki, Ukraynanın "112 Ukrayna" telekanalına müsahibəsi zamanı Cəmilov bir çox xalqların, o cümlədən azərbaycanlıların Ukrayna tərəfində vuruşmağa hazır olduğunu deyib:**



Mustafa Cəmilov

"Xarici ölkə vətəndaşlarının işğalçılara qarşı vuruşmasına imkan verən qanun layihəsinin müzakirəsi çox önəmlidir. Məsələn, mənə çeçenlər, müraciət ediblər. Özlərini "kadırovçu" adlandıran çeçenlər əslində çeçen xaqlının tullantılarıdır. Ona görə əsl çeçenlər deyirlər: "Biz də Ukrayna tərəfində vuruşmaq istəyirik".

**Mustafa Cəmilov bu əsnada özbək və azərbaycanlıların da adını çəkib:** "Mən təxminən 500 nəfərdən ibarət özbək mühaciri tanıyıram ki, buraya gəlib vuruşmaq istəyir. Azərbaycanlılar da var. Diktator rejimlərə qarşı vuruşan çoxlu müxalif insanlar var və onlar Ukrayna uğrunda vuruşmağa hazırdılar".

Krım tatarlarının lideri olan Mustafa Cəmilov Rusiyanın yarımadanı ilhaq etməsindən sonra Krıma buraxılmır. O, Rusiyanın Ukraynaya qarşı işğalçılıq siyasəti yürütdüyünü bildirən əsas şəxslərdən biridir.

# İrəvandakı yanacaqdoldurma məntəqələrində partlayış

**İrəvanda iki yanacaqdoldurma məntəqəsində partlayış baş verib. Publika.az "1in.am" saytına istinadən xəbər verir ki, partlayışlardan biri Babadjanyan və Andranik küçələrinin kəsişməsində yerləşən maye qaz yanacaqdoldurma məntəqəsində qeydə alınıb.**

Məlumata görə, məntəqə "Mercedes" markalı minik avtomobili yanacaq dolduran zaman partlayıb. Partlayışın səbəbi hələlik məlum deyil. İlkin məlumata görə, yanacaqdoldurma stansiyası "Multi Qrup" şirkətinə məxsusdur.

Daha bir partlayış isə İrəvanın cənub-qərb hissəsindəki maye qaz yanacaqdoldurma məntəqəsində baş verib. Polis partlayışlar nəticəsində ölən və yaralananın olmadığını bildirib.

# Ağ Evdə xroniki qanqaraçılıq salan araşdırmaçı



**Xalid KAZIMLI**

**Adı çox doğmadır. O addan ölkəmizdə də minlərlə var. Ancaq soyadı yaddır, ölkəsi uzaqdır. Bir də onun peşəsi bizə, bu sətirlərin müəllifinə doğmadır. O, dünya jurnalistlərinin ustadı Seymur Mayron Herşdir. Qısaca Seymur Herş.**

Cənab Herşin hazırda 78 yaşı var, ancaq 28-38 yaşlı jurnalistlər qədər məhsuldar və cürətlidir. Onun qələmindən çıxan hər bir sətir dünya miqyaslı sensasiya yarada bilər.

Bir neçə gün öncə böyük həmkarımız elə bir məqalə yazıb ki, bu məqalə demək olar ki, dünyanın bütün ölkələrində yayılıb, beynəlxalq sensasiya doğurub və yaranmış ajiotaja görə Ağ Ev açıqlama yaymaq zorunda qalıb.

Seymur Herşin son iddiası "Əl-Qaidə" terror təşkilatının lideri Üsamə bin Ladenin öldürülməsi ilə bağlıydı. Jurnalist iddia edirdi ki, bin Laden əvvəlcədən Pakistan kəşfiyyatının əlində, nəzarətində olub və onu lazım olduğu anda məhv ediblər. Məqsəd Obamanın ikinci müddətə prezident seçilməsinə nail olmaq, onun üçün parlaq piar təşkil etməkmiş.

Əslində cənab Herşin toxunduğu bu məsələ, bin Ladenin öldürülməsi xəbəri yayılan gündən gündəmdəydi, müzakirə olunurdu. Bu hadisənin, bin Ladenin qətlinin mübhəmlik haləsinə bürünməsi, Obamanın böyük bir təntənə ilə, şir öldürmüş qəhrəman kimi xalqa müraciət etməsi, 1 nömrəli terrorçunun nəşinin okeana atılması iddiası və sair və ilaxır xüsusatlar əsl araşdırma mövzusuydu.

Hələ o zaman bir çoxları qeyd edirdi ki, Amerika jurnalistləri bu məsələni belə qoymayacaqlar, mütləq araşdıracaq, həqiqəti ortaya çıxaracaqlar. Bu işin dalına düşəcək şəxslərdən birinin də Seymur Herş olacağı təxmin edilirdi. Göründüyü kimi, jurnalistik karyerasına başladığı vaxtdan bəri dəfələrlə Ağ Evin, Pentaqonun, Dövlət Departamentinin başını ağrıtmış jurnalist 78 yaşında da edəcəyini edib.

İndi Ağ Ev administrasiyası məşhur jurnalistin yazdığı məqalədəki mülahizələri təkzib etməyə çalışır. Eyni zamanda S.Herş bildirir ki, yazdıqlarının hamısı sənədlərə əsaslanır, yəni havayı söz yazmayıb.

S.Herş öz şöhrətini ABŞ-ın Vyetnamda apardığı müharibədə qazanıb. O zaman o, ölkəsinin Vyetnamda hərbi cinayətlərə yol verdiyini sənədlərlə faş edib. Bundan sonra S.Herş dəfələrlə ABŞ dövlətini və ayrı-ayrı prezidentlərin administrasiyasını ittiham edən yazılar dərc etdirib. ABŞ-ın İrana, Çiliyə qarşı pəstəhalarından yazıb, MKİ-nin muzdlu qatillərini ifşa edib. Lap axırıncı dəfə o, ABŞ hərbçilərinin İraqdakı "Əbu-Qreyb" həbsxanasında əsirlərlə amansız davranışından bəhs edən material hazırlayaraq dünya miqyaslı qalmaqal yaradıb.

Onu əlbəttə ki, dövlət maraqlarına qarşı olmaqda, ABŞ-ın milli mənafeyini nəzərə almamaqda da ittiham ediblər, ancaq Seymur Herş üçün əsas məsələ həqiqət və ədalətdir. O, dünya hegemonu olan dövlətin - ABŞ-ın ədalətli siyasət yeritməsini, insan haqlarından danışa-danışa əsirlərə qarşı qəddarlıq etməməsini, işgəncələrə göz yummamasını, şərait yaratmamasını istəyir.

Ölkəmizdə bir çoxları, xüsusilə də media sektorunda olanlar Seymur Herşin yaradıcılığını diqqətlə izləyirlər. Bir çoxları umur ki, keşkə bizdə də onun kimi jurnalistlər olaydı, onun kimi işləyəydilər.

Ancaq unudulur ki, Seymur Herş kimi böyük və bacarıqlı jurnalist yalnız böyük dövlətlərdə, açıq və demokratik dövlətlərdə yetişə bilər.

Seymur Herş Rusiyada fəaliyyət göstərsəydi, Listyev kimi güllələnər, Anna Politkovskaya kimi məhv edilərdi.

O, Türkiyədə olsaydı, Emil Çölaşan və Yılmaz Özdil kimi işlədikləri qəzetlərdən prezidentin, baş nazirin göstərişinə əsasən işdən çıxarılar, sıfırdan başlayan yeni və şöhrətsiz bir qəzetdə gücələ iş tapardı.

Seymur Herş Azərbaycanda doğulub işləsəydi, ya Elmar Hüseynov kimi evinin girəcəyində güllələnərdi, ya Avropaya mühacirətə getməyə məcbur olardı, ya özünü zaman-zaman tormozlayaraq, yazdıqlarına senzura qoya-qoya çalışardı, ya adaşı Seymur Həzi kimi heç nə üstündə həbsə düşərdi, ya da başqa bir adaşı Seymur Baycan kimi eyzən qadın-kişi münasibətlərinin özəlliklərindən bəhs edən yazılar yazardı.

Nə yaxşı ki, dünyada Seymur Herş var, nə yaxşı ki, o, 78 yaşında belə həqiqət axtarışındadır və dünyanı idarə edənləri izahat verməyə məcbur edir.

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015



# Ərdoğanın alternativ paradiqması

Azər RƏŞİDOĞLU

**Türkiyə parlament seçkilərinə hazırlaşır. Bu seçkilərdə də AKP-nin uğur əldə edəcəyi ehtimal edilir. İllər keçməsinə baxmayaraq, Ərdoğan öz nüfuzunu qoruyub saxlaya bilir. AKP-nin qələbəsi məhz onun adı ilə bağlıdır. Adı ətrafında korrupsiya qalmaqalının yaşanmasına, xarici və daxili təzyiqlərə baxmayaraq, Ərdoğan siyasi müstəvidə ən bacarıqlı lider kimi öz yerini möhkəmləndirə bilib. Müxalifət onun qədər xarizmatik bir siyasətçi yetişdirə bilməyib. Bu isə Ərdoğanın şansını artırır.**

Ərdoğan təzadlı bir liderdir. Mərhum Ərbakandan sonra Türkiyədə siyasi islamın ən parlaq nümayəndəsi olan Ərdoğanı sevənlərlə yanaşı, ona nifrət edənlər də az deyil.

Ərdoğan Məsud Yılmaz, Tansu Çillər, Süleyman Dəmirəldən fərqli olaraq siyasətə yenilik gətirdi.

İslamçı Ərdoğan çoxları üçün bir simvola çevrildi. Onun siyasi olimpdə olması bölgədə yaşayan inanclı insanların siyasətə gəlişinə bir stimul verirdi. Onun həyat yoldaşının, hicablı bir qadının, daima göz önündə olması isə sekulyar həyat tərzi keçirənlərə bir göz dağı idi. Bu, Qərb dəyərlərinə endirilən ağır zərbə idi.

Ərdoğan nümunəsini təhlil edənlər Azərbaycanda da mötədil İslamın siyasətdə əsas amilə çevrilə biləcəyindən ehtiyat edirlər. Odur ki, Ərdoğana yönələn nifrətin onun şəxsi keyfiyyətləri ilə əslində bir əlaqəsi yoxdur. Nifrət obyekti Türkiyə prezidentinin İslamı rituallara əməl etməsidir. Bundan Qərb də narahat olur. Vaxtilə hicablı xanımlar dövlət idarələrinə buraxılmayan Türkiyədə indi prezidentin xanımı hər yerdə baş örtüsü ilə görünür. Bu isə Qərb üçün yolverilməzdir. Lakin Ərdoğana nifrət edənlər yalnız onun inanclı olmasına qıcıqlananlar deyil.

Məsələ ondadır ki, Ərdoğanın hakimiyyətə gəlişi siyasətə tamamilə yeni paradiqmalar gətirdi. Ölkə daxilində və diplomatiyasında yürüdülən siyasət ənənəvi türk siyasətindən fərqli idi. Türkiyə bölgənin real gücünə çevrilmək və ABŞ-ın forpostu olmaqdan xilas olmağı arzulayır. Bu isə Qərbin maraqlarına ziddir.

AKP-nin uğurunun iqtisadi tərəfləri də mövcuddur. 2002-ci ildən hakimiyyətdə olan AKP bu illər ərzində iqtisadi göstəricilərinə görə bir çox uğurlara imza ata bildi. Dövlətin borcları əsaslı dərəcədə azaldı, iqtisadi sabitlik əldə edildi, ümumdaxili məhsul hər il 8 faizdən çox qalxdı, ölkə Avropanın 16 fərqlənmiş iqtisadiyyatının içərisində yer ala bildi.

Türkiyədə iqtisadi dirçəliş 10 il öncədən başladı. Süqut astanasında olan Türkiyə iqtisadiyyatı BVF-nin köməyi ilə inkişaf etdi. Ankara artıq həmin borclarını da ödəyib. Səhiyyədə, təhsildə aparılan ciddi islahatlar orta və kasıb təbəqənin rəğbətini qazanmağa yardım etdi.

Ərdoğanın sayəsində Türkiyədə hərbi diktatura tendensiyalarına son qoyuldu. 30 ildən artıq davam edən kürd separatçıları ilə silahlı mübarizə danışıqlar masasında davam etdirildi. Bu millətçi kəsimin etirazı ilə qarşılandı. Lakin Ərdoğan kürd problemini həll etmək istiqamətindəki səylərini davam etdirir. Düzdür, buna heç də həmişə nail ola bilmir.

Ərdoğanın islahatları bölgədəki ölkələr üçün mötədil İslamı cazibədar edirdi. Bu model İran üçün də keçərli sayıla bilərdi. Bəziləri hesab edirlər ki, Ərdoğanın qələbəsi Türkiyənin bölgə lideri olması şansını qaytarır.

Lakin burada bir incə məqam da mövcuddur. Parlament seçkilərində AKP yenə də təkbaşına iqtidar olarsa, bu uğur Ərdoğanı eyforiyaya uğrada və rəqiblərini əzməyə vadar edə bilər. Bu isə ölkəni qanlı vətəndaş qarşıdurmasına sürükləmək anlamına gələ bilər. Ərdoğanın alternativ paradiqması yeni osmançılıq, yeni turançılıq siyasətidir. Təbii ki, Qərb buna seyrçi qala bilməz.

Xarakterindəki sərtliyə baxmayaraq, Ərdoğan Türkiyə üçün bir simvola çevrilib. Çoxları belə hesab edir ki, Türkiyəyə bu mərhələdə ziyalı bir prezident deyil, məhz güclü lider lazımdır. Güclü lideri güclü ölkə anlamında qəbul edənlər də az deyil. Ərdoğan isə bütün mənfi və müsbət cəhətləri ilə birlikdə güclü bir liderdir....

# Məhkəmə medianews.az-a qarşı iddianı rədd etdi

## İttiham tərəfinin ərizəsinin qanunsuz olduğu üzə çıxdı

**Medianews.az saytının təsisçisi Ələsgər Süleymanovun xüsusi ittiham qaydasında məhkəməyə verilməsi barədə xəbər vermişdik. Mayın 12-də Nizami Rayon Məhkəməsində Ramil Həsənovun sədrliyi ilə ilkin hazırlıq iclası keçirildi. Prosesdə şikayətçi Rzayev Qulammirzə Ağamirzə oğlu və müdafiə tərəfinin vəkili Elçin Sadıqov iştirak edirdi.**




Hakim məhkəmə heyətini elan etdikdən sonra iddiaçı Rafiq Rzayevin əmisi oğlu, məhkəmədə onun nümayəndəsi rolunda iştirak edən şikayətçi çıxış etdi. Q.Rzayevin çıxışı zamanı məlum oldu ki, məhkəməyə təqdim edilən şikayət ərizəsi tamamilə qanunsuzdur. Qanunvericiyə görə, ərizə iddiaçı tərəfindən imzalanmalıdır. Eyni zamanda ərizədə iddiaçı özü barəsində məlumat verməlidir. Bu halların heç biri şikayət ərizəsində yox idi. Hətta ərizə R.Rzayev yox, Qulammirzə Rzayev tərəfindən təqdim olunmuşdu.

**Müdafiə tərəfinin vəkili Elçin Sadıqov buna etirazını bildirdi:** "Nümayəndə xüsusi ittiham qaydasında olan şikayəti imzalaya bilməz. Bununla bağlı qüvvəyə minmiş Xətai Rayon Məhkəməsinin qərarı var". Hakim də vəkilin dediklərini təsdiq etdi.

Sual doğuran hissələrdən biri də o idi ki, medianews.az-da "Bakıda burnundan əməliyyat olan kişi öldü" başlıqlı məqalə 7 may 2013-cü il tarixində dərc olunub. Şikayət isə 1 il 11 aydan sonra-31 mart 2015-ci ildə edilib. Hakim bunun səbəbini soruşdu. Şikayətçinin cavabı maraqlı oldu. O, iki il müddətində şikayət etmək hüquqlarının olduğunu bildirdi.

**Elçin Sadıqov xüsusi ittiham qaydasında işin icraata götürülməsindən imtina edilməsini xahiş etdi:** "İttihamçının tələbi odur ki, məlumat çıxarılsın. Məlumatın çıxarılması "KİV haqqında" Qanunda da yoxdur. İttihamçı deyir ki, internetdə adımı yazanda, bu məlumat çıxır. Məlumatın internetdən çıxarılması anlayışı belə yoxdur".

**Ramil Həsənov şikayət ərizəsinin qanunvericilikdə göstərilən tələblərin heç birinə cavab verməmədiyini qeyd etdi:** "Xüsusi ittiham qaydasında şikayət verilən zaman ittihamçı doğum tarixi, yaşayış yeri, işi, vəzifəsi, kimin barəsində şikayət etməyi ilə bağlı məlumat verməlidir. Şikayətdə bunlar öz əksini tapmayıb. Məhkəmə iclasında müəyyən olunub ki, şikayət ərizəsini imzalayan şəxs Qulammirzə Rzayevdir. Şikayət edən şəxs, ümumiyyətlə, ərizəni imzalamayıb. Qoyulan tələblər aydın deyil. Saytdakı məlumatda nalayiq formada şərəf və ləyaqətin alçaldılması, böhtan atılması halları yoxdur. Məlumatın çıxarılması tələbində cinayət məsuliyyəti yoxdur. Bu tələbə mülkü qaydada baxılmalıdır. 147-ci maddənin aidiyyəti yoxdur. Yazıda həkimin peşəkarsızlığı, səriştəsizliyi kimi ifadələr olsa, onun işinə xələl gələ bilər. Yalnız bu zaman qeyd etdiyiniz tələblər irəli sürülə bilər".

Sonda məhkəmə hər iki tərəfdən mövqelərini soruşdu.

Elçin Sadıqov xüsusi ittiham qaydasında işin icraata götürülməsi ilə bağlı keçirilən hazırlıq iclasından imtina edilməsini təklif etdi. Vəkil fikirlərini şikayətin heç bir qanunvericilik tələblərinə cavab verməməsi, eləcə də saytdakı məlumatda həkimə böhtan atılmaması ilə əsaslandırdı.

İttiham tərəfinin nümayəndəsi, eyni zamanda şikayətçi olan Q.Rzayev şikayətin məhkəmə baxışına göndərilməsini və əməliyyat zamanı ölən şəxsin qardaşının ərizəsinin əsas götürülməsini xahiş etdi.

Bundan sonra qərar qəbul etmək üçün məhkəmə müşavirəyə getdi. 10 dəqiqəlik müşavirənin ardından qərar məlum oldu. Hakim Ramil Həsənov ittiham tərəfinin şikayətinin rədd edildiyini elan etdi.

Qeyd edək ki, 17 may 2013-cü il tarixdə ANS və bir çox digər xəbər saytlarında "Bakıda burnundan əməliyyat olan kişi öldü" başlıqlı xəbər dərc olunub. Bu yazıya görə Ələsgər Süleymanov məhkəməyə verilmişdi. Xəbərdə deyilir ki, 48 yaşlı Qalib Əsədullayev burnundakı çəpərliyin əyriliyinə görə 6 ay bundan əvvəl Biləcəridəki Dəmiryolu Xəstəxanasında həkim Rafiq Rzayev tərəfindən əməliyyat olunub. Lakin əməliyyat uğursuz keçib və həkim yenidən əməliyyat olunmağı vacib bilib. Təkrar əməliyyat isə 17 aprel tarixində yenidən Dəmiryol Xəstəxanasında olub. Əməliyyatdan sonra xəstədə tez-tez qanaxma baş verib. Xəstə yenidən xəstəxanaya yerləşdirilib və dünyasını dəyişib.

❑ Cavanşir ABBASLI

# Tanınmış diplomatın qardaşı oğlu faciəli şəkildə öldü

**Azərbaycanlı diplomatın ailəsində faciə baş verib. Lent.az-ın anspress-ə istinadən xəbərinə görə, Sankt-Peterburqda yaşayan diplomat, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfir müavini Qüdsi Osmanovun qardaşı oğlu bədbəxt hadisə nəticəsində dünyasını dəyişib.**


Qüdsi Osmanov

Diplomatın 13 yaşlı qardaşı oğlu hündürmərtəbəli binanın 12-ci mərtəbəsindən yıxılıb. Hadisə nəticəsində uşaq dünyasını dəyişib. Onu Bakıya gətirərək dəfn ediblər.

# İcra başçısının oğlu məhkəmə zalında həbs edildi

## Səbayelin icra başçısının oğluna 5 il 6 ay həbs cəzası verildi




Asif Əsgərov

**Mayın 12-də Bakı Ağır Cinayətlər Məhkəməsində Səbayelin icra başçısının oğluna hökm oxunub. "Qafqazinfo"nun verdiyi xəbərə görə, icra başçısı Asif Əsgərovun oğlu İlham Əsgərliyə 5 il 6 ay, yük avtomobilinin sürücüsü Əhliman Süleymanova isə 6 il həbs verilib. İlham Əsgərli və Əhliman Süleymanov məhkəmə zalında həbs edilib. İcra başçısının oğlu İlham Əsgərli son sözündə qarşı tərəfdən üzr istəyib: "Biz Sənanla uşaqlıqdan dost olmuşuq. Maqsud dayı oğlunu itiribsə, mən də dostumu itirmişəm.**

Baş verənlərə görə üzr istəyirəm. Mən istəmədən bu hadisə oldu. Maqsud dayı, siz isə bilərəkdən məni həbsə göndərirsiniz".

Məhkəmə iclasında qarşı tərəflərdən biri də qəzada oğlu Sənanı itirən "McDonalds Azərbaycan"ın rəhbəri Maqsud Mirzəyev olub.

M.Mirzəyev oğlunun gec və şəraitsiz xəstəxanaya çatdırılmasına görə İlham Əsgərlinin və sürücüsü Pərvin Fətullayevin cəzalandırılmasını istəyib.

İ.Əsgərlinin vəkili Bəylər Məmişov məhkəmədə çıxış edərək Sənan Mirzəyevin atası Maqsud Mirzəyevdən ailə və təqsirləndirilən şəxs adından üzr istəyib. B.Məmişov məhkəmədə barışıq təklif edib.

**Yük avtomobilinin sürücüsü Əhliman Süleymanov isə özünü günahkar bilmədiyini deyib:** "Mən heç bilmirəm niyə ittiham olunuram. Getdiyim yerdə maşınla vurdular. Xahiş edirəm, ədalətli qərar çıxarasınız və mənim ailə vəziyyətimi nəzərə alasınız".

Məlumata görə, Ə.Süleymanov evlidir və 2 övladı var.

Hakim Ramella Allehverdiyevanın sədrliyi ilə məhkəmə kollegiyası İlham Əsgərlini və Əhliman Süleymanovu həm də 3 il müddətinə sürücülük hüququndan məhrum edib.

Hökm oxunan zaman İ.Əsgərlinin anası Rübabə Əsgərova və Ə.Süleymanovun atası Qəhrəman Süleymanov ağlayıb.

Qeyd edək ki, ötən il sentyabrın 27-də Zığ yolunda baş verən qəzada İlham Əsgərli idarə etdiyi maşınla Əhliman Süleymanovun idarə etdiyi yük avtomobilini vurub. İ.Əsgərlinin idarə etdiyi maşında olan dostu Sənan Mirzəyev vəfat edib.

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

# Müsavatdan çıxarılan şəxslər partiyanı məhkəmə ilə hədələdilər

**Partiya rəhbərliyindən sərt mövqe:** “Bundan sonra da əgər qaydaları pozanlar olacaqsa, partiya üzvlüyündən çıxarılacaqlar”

**Müsavat Partiyası Divanının qərarı ilə Suraxanı rayon təşkilatının sədri Rövşən Dəmirli, üzvlər Rahib Mirələmov, Əli Qasımbəyli partiya nizamnaməsinə və proqramına zidd fəaliyyətlərinə görə Müsavatdan çıxarıldılar. Hər üç şəxs Divanın iclasına dəvət olunmaqlarına baxmayaraq, iclasa gəlməyiblər. Partiyanın yaydığı rəsmi informasiyada deyilir ki, onların hər üçü nizamnamə tələblərini dəfələrlə kobud surətdə pozduqları üçün partiyadan xaric edilib.**


Rövşən Dəmirli

Müsavat Partiyası Mərkəzi Nəzarət Təftiş Komissiyasının Suraxanı rayon təşkilatının nizamnamə tələblərinə əməl etmədiyinə, pozuculuq fəaliyyətinə görə seçkili orqanlarının buraxılması barədə təqdimatı əsasında isə Suraxanı rayon təşkilatının seçkili orqanları buraxılıb və 13 nəfərdən ibarət təşkilat komitəsi yaradılıb. Təşkilat komitəsi Suraxanı rayon təşkilatının yeni konfransını hazırlayıb keçirəcək və təşkilatın strukturları yenidən formalaşdırılacaq.


Rahib Mirələmov

**Rövşən Dəmirli isə dünən bildirib ki, Müsavat Partiyası üzvlüyündən sonuncu xaric edilən şəxslər partiya rəhbərliyini məhkəməyə verəcəklər. Bu barədə hafta.az-a açıqlamasında R.Dəmirli deyib ki, etirazlarını yaxın günlərdə bildirəcəklər:** “Müsavat Partiyasının rəhbərliyini məhkəməyə vermək niyyətindəyik. Ola bilər ki, bəzi nizamnamə pozuntularına görə Ədliyyə Nazirliyinə də müraciət etdik”.

**Çıxarılan digər üzv Əli Qasımbəyli də Rövşən Dəmirli ilə eyni fikirdə olduğunu söyləyib:** “Rəsmi qərarı aldıqdan sonra məhkəməyə müraciət edəcəyəm”.

**Müsavat Partiyası Qadınlar Birliyinin sədri Ellada Məmmədli isə partiya üzvlərinin xaric edilməsini qınadığını bildirdi:** “İllərdir Müsavatın üzvü olan şəxslərin partiyadan kənarlaşdırılmasına münasibətim çox pisdir. İnsanların sərbəst toplaşmaq, azad söz demək hüququ var. Əgər demokratik partiya mənsubları fikir azadlığından, sərbəst toplaşmaq hüququndan narahatdırlarsa, bunun yolu cəza kəsmək deyil. Çox təəssüflənirəm ki, bugünkü Müsavat rəhbərliyinin əməli işi illərini partiyaya vermiş insanlara damğa vurmaqla, sədaqətli müsavatçıları partiyadan xaric etməklə məhdudlaşır. Suraxanı rayon təşkilatının buraxılıb yeni təşkilat komitəsi yaradılmasına da ehtiyac yox idi. Suraxanı rayon təşkilatı həmişə fəallığı ilə seçilib. Rövşən Dəmirli Məhəmməd Əmin Rəsulzadə ideologiyasına sadiq əsl müsavatçıdır. Rahib Mirələmov və Əli Qasımbəyli fədakar, qorxmaz, mərd və əqidəli insanlardır. Müsavat Divanının bu şəxslər haqqında verdiyi sərt qərar nizamnamədən kənar və yolverilməzdir. Bu qərarı verənləri qınayıram”.

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı isə bildirdi ki, qərarlardan şikayət vermək üçün partiyanın müvafiq qurumları və Nizamnamə ilə müəyyən olunmuş normalar var. Əgər Rövşən Dəmirli və digərləri partiyadan xaric edilmələrini düzgün hesab eləmirlərsə, nizamnaməyə uyğun olaraq hərəkət eləməlidir:** “Partiyanın nizamnaməsində məhkəməyə müraciət eləmək anlayışı yoxdur. Əgər o adam qərara gəlibsə ki, məhkəməyə müraciət edəcək, buyursun etsin”.

**“Məhkəmə Rövşən Dəmirlinin və digər iki şəxsin partiya üzvlüyündən xaric edilməsinin yanlış olduğu və onların partiya üzvlüyünə bərpa edilməsi qərarını verərsə, onlar geri qaytarılacaqmı” sualına G.Aslanlı belə cavab verdi:** “Müsavat Partiyası özünün nizamnaməsi və Azərbaycan Respublikasının qanunları ilə hərəkət edir. Əgər məhkəmə onların xeyrinə qərar qəbul edəcəksə, Müsavat Partiyası öz nizamnaməsinə uyğun olaraq hərəkət edəcək”.


Əli Qasımbəyli

Müsavat başqanının müavini Elman Fəttah isə qeyd etdi ki, əgər Suraxanı rayon təşkilatının keçmiş sədri Rövşən Dəmirli Müsavatı məhkəməyə vermək istəyirsə, buyursun: “Ona uğurlar arzulayıram.

Ümumiyyətlə, Müsavat Partiyasından son çıxarılanlar hansısa aksiyada iştirak etdiklərinə görə yox, o dövrə qədər olan hərəkətlərinə əsasən üzvlükdən çıxarılıb. Belə ki, həmin şəxslər sistemli olaraq davam edən qərarlara tabe olmamaq, partiyanın nüfuzuna qarşı fəaliyyətlərinə görə partiyadan çıxarılıblar. Əgər qaydaları pozanlar olacaqsa, onlar da partiya üzvlüyündən çıxarılacaqlar".

Son vaxtlar partiyaya qarşı olan hücumlar bir təşkilatdan həyata keçirilir. Bir dəstə bir təşkilat yaradıb Müsavat Partiyasına qarşı bütöv fəaliyyətləri mərkəzləşdiriblər. Təsadüfi deyil ki, ilk etiraz aksiyalarını da məhz Müsavata qarşı keçirdilər. Həmin təşkilatın rəhbərliyində Qubad İbadoğlu, Səxavət Əlisoy, Vurğun Əyyub və digərləri var. Bu adlar hər şeyi deyir".

Ellada Məmmədlinin də partiyadan xaric edilib-edilməyəcəyi məsələsinə isə Müsavat Divanının üzvü, təşkilat şöbəsinin müdiri Razim Əmiraslanlı aydınlıq gətirib. O bildirib ki, Ellada xanımın haqqında hələlik heç bir qərar gözlənilmir. Gələcək qərarlar isə onun fəaliyyətindən asılıdır.

R.Əmiraslanlı deyib ki, partiyanın qərar və tapşırıqlarına, nizamnaməsinə tabe olmayanlar cəzalandırılır. Bu, həm partiyanın bütövlüyünə, həm də inkişafına xidmət edir.

**Müsavat Partiyasının Divan üzvü Nemət Kərimli isə APA-ya deyib ki, Ellada Məmmədlinin məsələsi Divanın müzakirəsinə çıxarıla bilər:** “Müsavat Partiyasının qurultayından sonra Ellada Məmmədli hər hansı bir fəaliyyətlə məşğul deyil, bu səbəbdən Qadınlar Təşkilatı iflic vəziyyətdədir. Yəqin ki, bu məsələ Divanın növbəti iclasında müzakirə ediləcək”.

❑ **Etibar SEYİDAĞA**

# Bir gün soruşa bilərlər...



**Hüseynbala SƏLİMOV**

**Burada bayramlar həm də bir nicat günü olur. Qoy, “nicat günü” ifadəsi sizi çəkindirməsin. Bu ölkədə onsuz da çox şey hakimiyyətin mərhəmətinə qalıb...**

Hər bayram ərəfəsində ilk növbədə yada düşən siyasi məhbuslar olur - bunu etiraf etmək lazımdır. Demirik ki, siyasi məhbuslar o qədər çoxdur ki, onların problemi bütün bayramlara bəs edir. Yox, belə deyil, amma on milyonluq xalq və çox kiçik bir dövlət üçün yetərincədir...

İnsanlar, təbii ki, siyasi motivlərə görə təqib olunanların yaxınları və dostları, hər bayram ərəfəsində xəbər proqramlarını yalnız ona görə izləyirlər ki, görsünlər ki, əfv olacaq, ya olmayacaq? Mayın ilk on günlüyü həmişə olduğu kimi çox təntənəli keçdi. Hakimiyyət mənsublarının ürəklərinin yumşalması üçün əsaslar yetərincə idi. Amma əfv olmadı...

Bəlkə də həm də ona görə olmadı ki, məhbusların bir hissəsi əfv ərizəsi ilə müraciət etməkdən hələki kateqorik olaraq imtina edir. Onları başa düşmək elə də çətin deyil - insanlar bağışlanmalarını deyil, qanuni şəkildə azadlığa buraxılmalarını istəyirlər, çünki onlar özlərini günahsız hesab edirlər... “Hesab edirlər” deyəndə ki, onların böyük əksəriyyətinin günahsız olması nə yerli, nə də ki, əcnəbi ictimai fəallarda elə bir şübhə doğurmur...

Amma nə etmək olar? Bu ölkədə haqqın özünün haqq olduğunu sübut etməsi üçün kim bilir nələrdən keçmək lazım gəlir?...

Təsəvvür edin, ölkə böyük bir idman bayramı ərəfəsindədir. Deyirlər ki, bu, hamının - bütün cəmiyyətin bayramıdır. Ona görə də düşünmək olardı ki, siyasi məhbusların azad edilməsi üçün bundan düşərli məqam ola bilməz...

Amma təəssüf ki, həmrəy olmaq, “bir nöqtəyə vurmaq” bu ölkədə yalnız idarə olunanların öhdəliyidir. Hakimiyyət isə cəmiyyətə münasibətdə özünü hər hansı bir öhdəliyin daşıyıcısı hesab etmir...

Aydındır ki, əbədi olaraq belə davam edə bilməz. Yox, bu, quru kitab mülahizələri deyil, həyatın özü bunu göstərir. Özünüz diqqət edin. Həftə sonu Türkiyənin sabiq prezidenti Kenan Evren vəfat etdi...

Başqa vaxt bu hadisə bəlkə də bir o qədər diqqət çəkməyəcəkdi. Amma indi o, sözün əsl mənasında demək istədiklərimiz üçün tutarlı arqumentdir...

K.Evren hərbçi idi. Onun hərbi və siyasi fəaliyyəti hamıya bəllidir. Bəli, bu adam Türkiyədə faktiki olaraq repressiyalar aparmışdı... Üstündən az qala 30 il keçəndən sonra siyasət və ictimaiyyət fəalları onun məsuliyyətə cəlb olunmasına nail oldular...

Bu, o qədər də trivial və tez-tez təsadüf olunan hadisə deyil. Bir vaxt Polşada bizə deyirdilər ki, ictimai fəallar hələ də general V.Yaruzelskinin evinin qarşısında aksiya keçirir, onun məsuliyyətə cəlb olunmasını tələb edirlər. Gəl, polyak fəallar heç nəyə nail ola bilmədilər. Qoca general ömrünü ciddi siyasi təpkilər olmadan, sakitcə başa vurdu...

Eyni qayda ilə Çilidə də fəallar general A.Pinoçeti məsuliyyətə cəlb etdirə bilmədilər. Mən hələ sabiq Misir prezidenti H.Mübarəki demirəm...

Hələ yaxınlığımızdakı Rusiya prezidenti B.Yeltsinin hansı şərtlə istefaya getdiyini yada salmıram. Amma general Evren məsuliyyətə cəlb olunmuşdu və bunu Türkiyənin demokratiyaya sayğı göstərən bütün insanlarının qələbəsi hesab etmək olar...

Türkiyə generalı da sağlığında özünə bəraət qazandırmaq üçün çox arqumentlər gətirirdi. Hətta onu da deyirdi ki, o vaxt ölkə böyük vətəndaş müharibəsi ərəfəsində idi - sağçılar və solçular qarşısıalınmaz müharibəyə doğru gedirdi...

Amma bu arqumentlər türkiyəli insanlar tərəfindən tutarlı sayılmadı və onlar elə hey general Evrennin o vaxt dediyi məşhur kəlamı onun yadına salırdılar: “bir nəfər sağçılardan, bir nəfər də solçulardan öldürdük...”...

Qərəz, türkiyəli general məsuliyyətə cəlb olundu və hətta onu təmtəraqla dəfn etmək belə məsləhət görülmədi...

Özlüyündə bu hadisə nə göstərir? Göstərir ki, hər yerdə və həmişə olmasa da hər halda hər hərəkətin bir sorğu-sualı olur. Bir gün siyasətçilər etdikləri bütün əməllər üçün izahat verməli olurlar...

Amma bu da hələ hamısı deyil. Əslində general Evren Türkiyədə, general Pinoçetin Çilidə etdiyini etmişdi - faktiki olaraq ölkəni solçuların xaosundan qurtarmışdı...

Amma insanlar bunu da arqument kimi qəbul etmədilər. Bəli, ölkə qorunmalıdır, ölkənin konstitusion əsasları qorunmalıdır - ordu həm də bunun üçündür...

Amma siyasi məsələləri siyasətçilərin öhdəsinə buraxmaq lazımdır. Siyasət və ona yaxın məsələlər parlamentdə, seçki məntəqələrində çözülməlidir...

Hətta ən prinsipial məsələ belə repressiyalar üçün əsas ola bilməz, çünki elə bir gün gələcək ki, onlar soruşulacaq...

Düşünürlər ki, Pinoçetdən soruşulmadı, Yaruzelskidən soruşulmadı, Mübarək azadlığa buraxıldı, hətta Yeltsinə birinci prezident kimi toxunulmazlıq verildi. Düzdür! Amma general Evrendən soruşuldu...

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

**Dövlət başçısı İlham Əliyev Azərbaycana yönəlmiş təzyiqlərdən danışıb. Heydər Əliyevin anadan olmasının 92 illiyinə həsr olunmuş mərasimdə çıxışı zamanı İ.Əliyev növbəti dəfə Azərbaycana qarşı təzyiq kampaniyalarının olduğunu deyib. Dövlət başçısı bildirib ki, müəyyən qüvvələr hər dəfə Azərbaycanda beynəlxalq tədbirlər keçirilən zaman ölkəmizə qarşı qarayaxma kampaniyaları təşkil edir.**



# İlham Əliyevin Avropa Oyunları mesajı...

## Zahid Oruc: "Görünür, biz xalq olaraq iyunun 12-dək məlum oyunlara cavab verməliyik, 12-dən sonra isə idmançılar cavab verməlidir"

**Sitat:** "Üç il bundan əvvəl "Eurovision" mahnı müsabiqəsi ərəfəsində Azərbaycana qarşı nə qədər çirkin qarayaxma, şantaj, böhtan kampaniyaları aparılmışdı. Bütün bunları biz yaxşı xatırlayırıq. İndi də təxminən eyni mənzərə ilə üzləşirik. Ancaq o vaxt da bunun heç bir təsiri, əhəmiyyəti yox idi, bu gün də yoxdur. Çünki Bakıya gələcək minlərlə idmançı, onların nümayəndə heyətləri öz gözləri ilə görəcəklər ki, Azərbaycan dövləti nəyə qadirdir, müstəqillik dövründə biz nələr yaratmışıq, Azərbaycan xalqı necə yaşayır. Azərbaycan xalqı azad, qürurlu, öz milli dəyərlərinə sadiq xalq kimi yaşayır. Azərbaycan ictimaiyyəti bütün bu müsbət dəyişiklikləri görür, onları təqdirlə qarşılayır. Ona görə bu yüksək kürsüdən mənim üçün çox əziz bir gündə bir daha demək istəyirəm ki, bütün bunlara fikir vermək lazım deyil. Bizim siyasətimizə bunun heç bir təsiri olmayacaq".

Azərbaycanın tarixinin ən güclü dövrünü yaşadığını qeyd edən İ.Əliyev aparılan işlərin inkişafa hesablandığını və dövlətin möhkəm dayaqlar üzərində qurulduğunu bildirib. Qeyd edək ki, son zamanlar Azərbaycan hakimiyyəti nümayəndələrinin çıxışlarının əsas hədəfi məhz xaricdən ölkəyə qarşı həyata keçirilən təbliğat və təzyiqlərdir. Rəsmilərin çıxışlarında bir qayda olaraq Azərbaycana qarşı qaralama və güclü əks-təbliğatın aparıldığı qeyd olunur.



Zahid Oruc

**Deputat Zahid Orucun fikrincə, Azərbaycana qarşı təbliğat elementləri xüsusən bu cür beynəlxalq tədbirlərə ev sahibliyi etdiyi zaman hiss olunmağa başlayır. Deputata görə, Azərbaycan bu cür tədbirlər vasitəsilə Avropanın bir hissəsi olduğunu nümayiş etdirməyə çalışır, bu isə birmənalı qarşılanmır:** "Azərbaycan bu tədbirlərlə müəyyən bir ideiasını ortalığa qoyur. Yəni keçmiş sovet məkanına daxil olan ölkələr sırasından seçilərək Qərbin enerji və iqtisadi məsələlərdə, eləcə də vaxtında bir sıra təhlükəsizlik formatında, indi isə idman tədbirləri ilə bir hissəsi olmaq istəyi bir sıra qüvvələr tərəfindən qəbul olunmur. Yəni bu, Azərbaycanın Avropanın paytaxtı olduğunu göstərən hadisədir. İkincisi isə gücünü ortalığa qoyur. Zəif, parçalanmış ölkə buna qadir ola bilməz.

Məsələn, bir qədər əvvəl qərbli jurnalist Azərbaycanda ağır müharibələrin getdiyini və bura gəlməyin təhlükəli olduğunu söyləmişdi. Eyni zamanda burda qeyri-qanuni müsəlman icmalarının mövcud olduğunu və digər dinlərə qarşı bir dözümsüzlük olduğunu qeyd etmişdi. Və bunu onlar üçün bir problem kimi qoymuşdu. Yəni Azərbaycan üçün bir imkandır ki, buranın radikal, digər dinlərə qarşı dözümsüzlərin deyil, tolerant, digər dinlərə qarşı xoşgörülü insanların yaşadığı, dünyəvi dövlət qaydaları, çoxillik ənənələri, mədəniyyəti olan bir toplum olduğunu təqdim eləsin. Bu isə görünür, kimlərisə narahat edir".

**Z.Oruc deyir ki, daha bir önəmli məqam informasiya axını və bundan faydalanmaqdır. Deputatın fikrincə, Azərbaycan bu yarışlarla həm də təbliğat imkanları qazanır və təbii ki, bundan narahat olanlar da var:** "İnformasiya çox bahalı bir resursdur. Bu gün dünya çapında belə məsələlər üzərindən təqdim olunmaq bu ölkənin xeyrinə işləyir bütün parametrlərinə görə. Yəni bu, bir biznes layihəsi olmasa da, mahiyyətcə bütün sahələrə təsiri var. Ona görə də bu bahalı informasiya resursundan Azərbaycanın istifadə etməsi də görünür ki, regionda ölkəmizin mövqeyini, imkanlarını dəyişəcək. Bax bu hesablamaların üzərindən qərarlar verənlər var ki, Azərbaycan idarəolunmaz bir vəziyyətdə olacaq. Ona görə də düşünürəm ki, qarşıdakı dövrdə çoxlu filmlər çəkiləcək, Azərbaycan əleyhinə təbliğat aparılacaq, Azərbaycanın bu hadisələr üzərində incə şəkildə Qarabağ təbliğatı aparmasına, necə deyərlər, diversiya cəhdləri ediləcək.

Oyun sözü Azərbaycan leksikonunda iki məna daşıyır. Biri gerçək yarışdır ki, orada normal güc, mübarizə, münsiflərin iştirakı ilə yarış olur. İkincisi isə müxtəlif çirkli ssenarilər və sair qara əməlləri nəzərdə tutur. Görünür, biz xalq olaraq iyunun 12-dək məlum oyunlara cavab verməliyik, 12-dən sonra isə idmançılar cavab verməlidir". Təxminən mübarizə iki hissəyə ayrılıb".

❑ **KƏNAN**



# Növbəti iqtidar-müxalifət görüşünün vaxtı məlum oldu

**İqtidarla müxalifət arasında növbəti görüşün tarixi məlum olub. Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Yusif Bağırzadə "Report"a açıqlamasında bildirib ki, görüş Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun rəhbərliyi ilə mayın 15-də saat 10:00-da baş tutacaq.**

Xatırladaq ki, iqtidarla müxalifətin sonuncu görüşü fevralın 12-də keçirilib. Görüşdə iqtidar tərəfdən Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, şöbənin müdir müavini Tahir Süleymanov, şöbənin sektor müdiri Elman Paşayev, müxalifət tərəfdən isə Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseyn, Azərbaycan Sosial Demokrat Partiyasının (ASDP) sədri Araz Əlizadə, Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu, Azərbaycan Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu, Böyük Quruluş Partiyasının (BQP) başqanı, deputat Fazil Mustafa, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, deputat Qüdrət Həsənquliyev, Demokratik İslahatlar Partiyasının (DİP) sədri, deputat Asim Mollazadə, Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev, Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev, Ümid Partiyasının sədri, deputat İqbal Ağazadə, Azadlıq Partiyasının sədri Əhməd Oruc, Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Yusif Bağırzadə, Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri, deputat Fərəc Quliyev, Azərbaycan Vahid Kommunist Partiyasının sədrinin birinci müavini Musa Tukanov və Azərbaycan Kommunist Partiyasının sədri Rauf Qurbanov iştirak edib.

"Azadlıq-2015" seçki blokundakı müxalifət partiyalarına da mayın 15-də saat 10.00-da hakimiyyət təmsilçisi Əli Həsənovla görüşün olacağı barədə dəvət gəlib. Blokun üzvü olan Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseynin "Yeni Müsavat"a verdiyi xəbərə görə, Prezident Administrasiyasından ona zəng edilib və görüşün dəqiq vaxtı barədə məlumat verilib, dəvət olunub.

**Görüşdə müzakirə olunacaq mövzu barədə isə P.Hüseyn hər hansı fikir bildirmədi:** "Mayın 13-də blokun Sədrlər Şurasının toplantısı olacaq və görüşlə bağlı məsələ müzakirə olunacaq. Bundan sonra məsələlərə aydınlıq gələcək".

**Blokda təmsil olunan KXCP-nin sədri Mirmahmud Mirəlioğlu da bildirdi ki, ona zəng edilib görüşün vaxtı barədə məlumat verilib:** "Blokdakı partiyaların sədrlərinin mayın 13-də toplantısında müzakirə edib dəyərləndirəcəyik, mövqeyimizi bildirəcəyik".

❑ **ETİBAR**

# "Hakimiyyət real müxalifətin parlamentdə təmsilçiliyinə gedəcək"

## Siyasi ekspertdən yeni parlamentin tərkibi ilə bağlı maraqlı proqnoz

**Azərbaycanın hazırkı parlamentinin ömrünə az qalır. Noyabr ayında növbəti seçkilər keçiriləcək və yeni tərkibdə parlament formalaşacaq. 2010-cu ilin noyabrında formalaşdırılmış indiki parlamentin tərkibində çoxlu sayda partiyalar olsa da, tərkiblə bağlı birmənalı fikir yoxdur.**

Bir sıra beynəlxalq təşkilatların indiyə qədər yaydıqları hesabatlarda Azərbaycan parlamentində real müxalifətin təmsil olunmaması, bəzi hesabatlarda isə parlamentdə müxalifətdən cəmi bir deputatın olduğu bildirilib.

Yeni parlamentin tərkibində real müxalifət partiyalarının təmsilçiliyinə şərait yaradılıb-yaradılmayacağı barədə proqnozlar da verilməkdədir. **Siyasi şərhçi Natiq Miri** hesab edir ki, 2015-ci il parlament seçkilərində real müxalifət partiyalarından bəziləri parlamentdə təmsilçilik əldə edə biləcəklər. Hakimiyyət buna şərait yaradacaq.

**Ekspert bu qənaətə gəlməyini belə əsaslandırdı:** "Artıq həm regional, həm qlobal səviyyədə bir çox krizislər var.



Natiq Miri

Yaranmış situasiya Azərbaycan parlamentində real müxalifət partiyalarının da təmsilçiliyini getdikcə diktə edəcək. Ölkədə bir neçə aydan sonra bir sıra dəyişikliklərə start veriləməsi gözlənilir. İslahat xarakterli bu dəyişikliklər ölkə başçısının iradəsi ilə gerçəkləşdiriləcək. Bu dəyişikliklər sırasında da payızda formalaşacaq parlament daha rəngarəng olacaq. Mən demirəm ki, müxalifətdən parlamentə düşənlərin sayı çoxluq təşkil edəcək. Təmsilçilik az sayda olacaq. Real müxalif partiyalardan bir neçəsinin bəzi namizədlərinin qələbəsi tanınacaq. Artıq tam aydındır ki, 2010-cu ildə formalaşdırılmış şəkildə parlament Azərbaycanın imici baxımından işə yaramır. Real müxalifətin parlamentə düşməsi artıq hakimiyyətə də lazımdır. Hakimiyyət beynəlxalq birlik qarşısında daha kəsərli, daha sərbəst olmaq üçün parlamentin tərkibində dəyişikliklərə gedəcək - müxalifət partiyalarının parlamentdə təmsilçiliyinə yaşıl işıq yandıracaq. Real müxalifətin olması parlamentin özünə də müəyyən mənada yeni şəkil verəcək. Odur ki, hesab edirəm bu, hakimiyyətin marağında olan məsələdir".

**N.Miri hesab edir ki, gözlənilən dəyişikliklər təkcə müxalif siyasi partiyaların deyil, eyni zamanda media təmsilçilərinin, QHT nümayəndələrinin, gənclər təşkilatlarının da nümayəndələrinin mandat əldə etməsini şərtləndirəcək:** "İndiki vəziyyət də bunu zəruri edir. Avropa Oyunlarından sonra ölkədə yeni proseslər başlayacaq. Son zamanlar aparılan siyasətdə də müəyyən dəyişikliklər hiss edilir. Ordu quruculuğunda, Dağlıq Qarabağ cəbhəsində, eyni zamanda bir sıra oliqarxların yoxlanmasına başlanması, bir sıra strukturların ləğv olunmasında yeni prosesin başlanğıcı müşahidə edilməkdədir".

Ekspertin sözlərinə görə, hakimiyyət fərqindədir ki, real müxalif partiyaların, media və QHT rəhbərlərinin az sayda parlamentdə təmsilçiliyi iqtidar üçün heç bir təhlükə yaratmır və yaratmayacaq.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

**Azərbaycan Beynəlxalq Bankından milyardlarla manat vəsaitin kreditlər yolu ilə mənimsənilməsi işi üzrə həbslər var. Məlumatda deyilir ki, Beynəlxalq Bankdan verilən və geri qaytarılmayan kreditlərin həcmi 6 milyard manata yaxındır. Bu vəsaitlər müxtəlif illərdə bankın sabiq rəhbəri Cahangir Hacıyevlə bağlı olan iş adamlarına, yerli və xarici şirkətlərə kredit şəklində verilib, yaxud kommersiya perspektivi şübhəli olan layihələrə yatırılıb.**

# Bayraq Meydanı İdarəsinin keçmiş rəisi və şəriki saxlanıldı

## Tanınmış iş adamları da həbs edildi

Xəbərlərə görə, oliqarx Nizami Piriyev Bakıda həbs olunub. Hüquq-mühafizə orqanlarındakı mənbələrdən virtualaz.org saytına verilən məlumata görə, məhkəmə oliqarx barədə 4 aylıq həbs-qətimkan tədbiri seçib.

Məlumata görə, N.Piriyev fırıldaqçılıqda və ictimai əmlakı mənimsəməkdə ittiham olunur. Nizami Nəsib oğlu Piriyev 1958-ci ildə Gəncədə anadan olub. Sahibkar, Azərbaycanda hakimiyyət dairələrinə kifayət qədər yaxın bir adam kimi tanınır. İnşaat Mühəndisləri İnstitutunu bitirən iş adamı bir müddət Bakıda tikinti-sənaye müəssisəsində işləyib. 1992-2002-ci illərdə «PNN Arkansas Inc» neft-qaz şirkətinin prezidenti olub. 2003-cü ildən isə Rusiyanın «StroyTransGasOil» neft-qaz şirkətinin baş direktoru vəzifəsini daşıyıb. Baş direktor olduğu «StroyTransGASOil» şirkətinin əsas səhmdarları Rusiyanın «Qazprom» və PNN Petroleum Ltd «Nasib Coop. at GeoPhysPribor» şirkətləri olub.

2006-cı ildə Azərbaycana dönən N.Piriyev «AzMeCo»nu təsis edərək reigonda ilk metanol zavodunu tikməyə başlayıb. 360 milyon dollara başa gələn müəssisə 2013-cü ildən fəaliyyət göstərir.

Nizami Piriyevin Beynəlxalq Bankla əlaqələri də metanol zavodunun tikintisi zamanı yaranıb. Zavodun tikintisinə Avropa Yenidənqurma və İnkişaf Bankı 120 milyon dollar kredit ayırıb. Zavodun tikintisi üçün qalan pulun böyük hissəsinin Azərbaycan Beynəlxalq Bankından, kiçik bir hissəsinin isə Rusiyanın "Sberbank"ından götürüldüyü bildirilir.

Ancaq indi məlum olur ki, Piriyev Beynəlxalq Bankdan zavodun tikintisi və digər məqsədlər üçün götürdüyü kreditləri qaytarmayıb. Nizami Piriyevin adı hökumətə xaricdə lobbiçilik edənlərin arasında çəkilib. 2010-cu ildə Britaniyanın keçmiş baş naziri Toni Bleyeri bir neçə yüz min funta Bakıya gətirən Piriyevlərin Azərbaycana Amerikada lobbiçilik etdikləri də bildirilir. ABŞ-ın Ədliyyə Nazirliyinin arxivində olan sənədlərə görə, Azərbaycana 1997-1998-ci illərdə təkcə şirkətlər yox, fiziki şəxslər də lobbiçilik edib. Sənədlərdə deyilir ki, Azərbaycan hökuməti 1997-ci ildən 1999-cu ilədək Rusiyada yaşayan biznesmen Nizami Piriyevin xidmətindən istifadə edib.


Rəşad Məmmədov


Nizami Piriyev

Həbs edilənlər sırasında "Azərinşaat" MMC-nin rəhbəri Mehdi Əliyev də var. Nərimanov Rayon Məhkəməsinin qərarı ilə M.Əliyev barədə də 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

"Azərinşaat" MMC 2012-ci ilə qədər Nəqliyyat Nazirliyinin rəhbərliyinin və iş adamı Hafiz Məmmədovun ("Hafka") kurasiyasında olub. Ötən 10-12 ildə Azərbaycanda həyata keçirilən, dövlət büdcəsindən, beynəlxalq maliyyə institutlarından, Dövlət Neft Fondundan maliyyələşdirilən yol-infrastruktur layihələrinin əksəriyyətini podratçı kimi bu şirkət həyata keçirib. Lakin 2012-ci ildə bu şirkət ətrafında müəmmalı proseslər başlayıb. Şirkətin rəhbəri, Türkiyə vətəndaşı Bülent Karani qəfildən, gecə ilə Azərbaycandan qaçıb. "Azərinşaat" MMC rəhbərinin Beynəlxalq Bankdan nə qədər vəsait götürdüyünü və geri qaytarmadığını hələlik dəqiqləşdirə bilməmişik. Həmçinin bu şirkətin sahibinin dəyişməsi ətrafında baş verənlər ayrıca araşdırmanın mövzusudur. Bundan başqa, Beynəlxalq Bankın işi üzrə həbs olunanlardan daha birinin adı məlum olub. Bu, 90-cı illərin sonları - 2000-ci illərin əvvəllərində məşhur olan Əli Ansuxski adlı iş adamının oğlu Abdul Ansuxskidir.

Abdul Ansuxskini BMCMİ əməkdaşları xarici ölkələrdən birindən qayıdanda aeroportda saxlayıblar. Ancaq o, banka olan borcunu ödəyə bilib və buraxılıb.

"Azİmport" şirkətinin sahibi Rəşad Məmmədov və onun şirkətdəki şəriki Azər Əsgərov də mayın 12-də saxlanılıblar.

"Azİmport"dakı mənbələrdən virtualaz.org saytına verilən xəbərə görə, mülki geyimli şəxslər şirkətin ofisinə gedərək hər iki şəxsi saxlayıblar.

Məlumata görə, həmin mülki geyimlilər bir müddətdən sonra Azər Əsgərovla birlikdə şirkətin ofisinə qayıdıblar. Onlar ofisdən zəruri sənədləri götürərək A.Əsgərovla birgə yenidən naməlum istiqamətə gediblər.

R.Məmmədovla A.Əsgərovun hazırda harada olması barədə heç bir məlumat yoxdur.

Qeyd edək ki, R.Məmmədov Dövlət Bayrağı Meydanı Kompleksi İdarəsinin sabiq rəisidir. Virtualaz.org saytı həm də "AzİmpoRt" şirkətinin sahibi olan R.Məmmədovun şirkətinin Bakı sakinlərinə qarşı özbaşınalıqları haqda bir neçə araşdırma yazısı dərc edib. R.Məmmədovun bacısının əri A.Əsgərov tərəfindən rəhbərlik edilən şirkət Bakıda yüzlərlə, minlərlə ailənin halal mal-mülkünü qəsb etməkdə ittiham olunur.

❑ E.MƏMMƏDƏLİYEV

# Azərbaycana real təhlükə mənbəyi - Qərb, yoxsa Rusiya?



## **Arzu Nağıyev:** "Qərblə yaxınlaşmağımız Rusiyanı, eləcə də Moskva ilə siyasi, iqtisadi və hərbi anlaşmalar ABŞ-ı və Qərbi qane etmir"

**Son zamanlar iqtidar mənsublarının siyasi ritorikasında əsas xətti Azərbaycana qarşı xarici təzyiqlər təşkil edir. Ən yüksək səviyyədə ölkə rəsmiləri Azərbaycana qarşı xarici ölkələrin qarayaxma kampaniyasından danışır, dövlətimizə qarşı Qərb ölkələrində təhlükəli planlar hazırlandığını bildirirlər.**

Bir qədər əvvəl Azərbaycana qarşı ABŞ dövlət katibinin ofisində mərkəzin qurulduğu və planlı kampaniya aparılması ilə bağlı sənədlər də ortaya çıxdı. Ancaq Azərbaycana qarşı xarici təzyiqlərin ünvanı yalnız Qərb deyil. Maraqlıdır ki, eyni şəkildə Rusiyanı da Azərbaycan üçün real təhlükə sayan və Moskvanın Bakını "sıxdığını" iddia edən siyasətçi və ekspertlər var. Azərbaycana qarşı təzyiqlər bu və ya digər ölkə, yaxud coğrafi məkanlarla ifadə oluna bilərmi? Ümumiyyətlə, real olaraq Azərbaycana hansı ölkədən və hansı qruplardan təhlükə var?

**Mövzu ilə bağlı söhbət etdiyimiz ekspert, "Trend" agentliyinin direktor müavini Arzu Nağıyevin fikrincə, hər bir dövlətdə olduğu kimi, Azərbaycanı da həm daxildə, həm də xaricdə istəməyən qüvvələr var. Ekspertə görə, hər bir ölkə və ya təşkilat dövlətlərə öz maraqlarından yanaşır və bu maraqlara zidd olanda təbii ki, narazı qalır:** "Düşünürəm ki, real təhlükə Azərbaycanın müstəqil siyasət yeritməsindən qıcıqlanan, narazı olan istər xaricdə, istərsə də daxildə olan müəyyən qüvvələrdir. Qərblə yaxınlaşmağımız Rusiyanı qane etmir, eləcə də Rusiya ilə siyasi, iqtisadi və hərbi anlaşmalar ABŞ-ı və Qərbi qane etmir. Bir sıra dövlətləri razı salmayan məsələlər İsrail dövləti ilə əlaqələrimizdir. Ərəb dünyası İranla qonşuluq siyasətindən narazılıq edirsə, əksinə, İran ərəblərlə münasibətlərimizə şübhə ilə yanaşır. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində beynəlxalq hüquq normaları çərçivəsində və ordu quruculuğuna daha çox önəm verən ölkə kimi istiqamət götürən Azərbaycan müxtəlif maneələrlə üzləşir. Bir sözlə, geosiyasi məqamlar bu gün o qədər çətinləşib ki, müstəqil siyasət sanki heç kimi qane etmir".


Arzu Nağıyev

**Həmsöhbətimiz deyir ki, Avropa Oyunlarının keçirilməsi ilə əlaqədar Azərbaycana qarşı təzyiqlər daha da çoxalıb. A.Nağıyevin fikrincə, bir sıra təbii şərtlər, o cümlədən Azərbaycanın təşəbbüs etdiyi işlər onu istər-istəməz "hədəfə" çıxarır:** "Yəni bəzi qüvvələr qəbul edə bilmirlər ki, necə ola bilər ki, o cümlədən müsəlman dövləti olan Azərbaycan belə bir miqyaslı tədbirə ev sahibliyi etsin və buna hazır olduğunu nümayiş etdirsin. Bu gün Azərbaycan həm müharibə aparır, həm tolerantlığını sübut edir, eyni zamanda mötəbər yarışların ev sahibi olur. Əlbəttə, çətinliklər də var, unutmaq lazım deyil ki, dünyada iqtisadi böhran yaşanır, bu, müəyyən qədər bizə də təsir göstərir. Bütün bunlara baxmayaraq, dosta dost, düşmənə düşmən kimi cavab vermək imkanlarımız tükənməyib. Belə bir şəraitdə kimin kim olduğu daha aydın hiss olunur".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015



# Sonuncu romantik

Zamin HACI
zaminhaci@gmail.com

**Mehman Hüseynovun ölüm xəbərini dünən çox böyük kədərlə oxudum. Hüseynov Qarabağ uğrunda döyüşlərə ilk atılanlardan biri olmuşdu, Xankəndinə bitişik Kərkicahan uğrunda döyüşdə, 1991-ci ilin dekabrında ağır yaralanıb əsir düşmüşdü. Deyilənə görə, rejissor Ceyhun Mirzəyev məşhur və hələlik Qarabağ savaşı mövzusunda yeganə adam arasına çıxarılası filmimiz olan "Fəryad"ı məhz Mehman Hüseynovun həyatı əsasında çəkmişdi, onun əsirliyini təsvir eləmişdi.**

Yeri gəlmişkən, Ceyhun Mirzəyev də elə o sonuncu romantiklər nəslindən idi, "Fəryad" filminə sözün əsl anlamında canını qoymuşdu, filmdə İsmayılın döyülməsi səhnələrinin yaxşı alınması üçün erməni rolunu oynayanlara tapşırıbmış ki, zərbələri gerçəkdən vursunlar. Bir versiya var ki, Mirzəyev elə filmdə aldığı zərbələrdən ölüb. Hər halda, Mirzəyevin cəmi 46 yaşında, "Fəryad" filminin premyerasını belə görmədən 1993-cü ilin martında ölməsi təsadüf deyil.

Ümumiyyətlə, biz o romantiklər və idealistlər nəsli haqda nə bilirik ki? Örnək üçün, Badamdar qəsəbəsinin mərkəzində Tofiq Məmmədov adına bir küçə var. O küçədə yaşayanların, o küçədən keçənlərin neçəsi Tofiq Məmmədovu xatırlayır, onun 1991-ci ildə, dekabr ayında məhz Mehman Hüseynovun komandir olduğu dəstənin tərkibində Kərkicahan döyüşlərində həlak olduğunu bilir? On nəfərdən ikisi bilsə sevinərəm... Hələ Kərkicahanda döyüşməyin, özü də tam mühasirə vəziyyətində kiçik bir qrupla yurdumuzu qorumağın nə demək olduğunu anlamaq üçün Google xəritələrinə baxın, orda Kərkicahanı tapın. Xankəndinin demək olar burnunun ucudur. Mehman Hüseynovun niyə Bakıxanov qəsəbəsində tək-tənha, unudulmuş durumda ölməsinin mənasını yalnız o zaman, bir azca anlayarsınız. Kərkicahan da belə "ölmüşdü".

Doxsanıncı illərin əvvəlində, hələ pullu qor-qoduqların, papanın gül balası avtoş qırıntılarının deyil, romantiklərin, vətən sevgisi ilə ürəyi döyünən idealistlərin hörmətdə olduğu vaxtlarda Mehman Hüseynov bizim üçün əfsanə adlardan biri idi. Deyirdilər ki, o, "Narxoz" kimi isti yerdə, müəllimlərin "Kapitalist Mamed", "Rüşvət Əsəd", "Eşşək Vahid" tipli adlar qazandığı bir mühitdə parazitlik eləmək istəməyib, dərs dediyi coğrafiya kafedrasında müəllimliyi atıb, ilk könüllü batalyonumuzun taqım komandirlərindən biri kimi döyüşə atılıb. Deyirdilər ki, Kərkicahan döyüşü çox ağır olub, 8 nəfərimiz həlak olub, qalanlarını yaralı əsir alıblar. Deyirdilər ki, əsirlərdən biri - kərkicahanlı Fərhadı "mən erməni çörəyi yemirəm" dediyi üçün işgəncə içində öldürüblər.

Mehman Hüseynovun Xankəndində saxlandığı kamera çox soyuq imiş. Deyirdilər o vaxt bir rus deputat *(adını heç cür yadıma sala bilmədim)* Xankəndinə gəlibmiş. O vaxtlar rusların belə əcaib, "sülpərvər" missiyaları çox olurdu. Bu adam əsirlərə də baş çəkir, kameranın çox soyuq olduğunu görəndə əynindəki qalın paltonu Hüseynovun üstünə örtmək istəyir. Hüseynov rusun bu hərəkətini məğrurluqla rədd eləmiş, paltarı götürməmişdi.

Dünən isə rus general Patruşev Bakıda hakimiyyət nümayəndələri ilə mazaqlaşırdı. O tərəfdə Mehman Hüseynov tək-tənha ölürdü. Bir az bu yanda başqa Qarabağ döyüşçüsü Tofiq Yaqublunu qaranlıq zindanda, cavan qızının ölümü ilə tək buraxmışıq. Sumqayıt tərəfdə şəhid ailələri, ərləri, ataları torpaq uğrunda ölən qadınlar avtomobil yolunu bağlayıb evlərinin qanunsuz uçurulmasına etiraz edirdilər. Onlar asfaltın üstündə diz çökmüşdülər, 50 min dollarlıq maşınla onları sürüməyə gələn polis çavuşu isə dişini ağardırdı.

Romantiklər ölməli idilər. Yalnız onlar hamısı öləndən sonra biz böyük bir epoxanın başını bağlayıb asudə şıllaq ata biləcəyik.

## Avropa Oyunlarından sonra kimlər gedəcək - ilkin siyahı




# İqtidarın "talana son" planı - şok təfərrüatlar

## İqtidar prosesi Avropa Oyunlarından sonraya saxlamaq niyyətində olub, amma üzə çıxan faktlar, büdcənin zəiflədiyi bir vaxtda bəzilərinin dövlətin puluna xor baxmaları prezidenti qəti qərarlar verməyə vadar edib; siyahıda kimlərin adı var?

**Neftin qiymətinin düşməsi və manatın devalvasiyasından sonra iqtidarın büdcə pullarına nəzarətin gücləndirməsinin şok nəticələri artıq ortaya çıxmaqdadır. Xəbər verildiyi kimi, Cahangir Hacıyevin Beynəlxalq Banka rəhbərlik etdiyi dövrdə baş verən müdhiş maxinasiyalar, iş adamlarının dövlətin nəzarətində olan bankdan aldıqları külli miqdarda kreditləri qaytarmaması səbəbindən həbslər başlayıb. Həbs olunanlar Beynəlxalq Bankdan iri həcmdə kreditlər götürərək fırıldaqçı sxemlər əsasında mənimsəyən, yaxud kreditləri alıb qaytarmayan iş adamlarıdır.**

Xəbərlərə görə, iqtidar bu prosesi Avropa Oyunlarından sonraya saxlamaq niyyətində olub. Amma üzə çıxan faktlar, büdcənin zəiflədiyi bir vaxtda bəzilərinin dövlətin puluna xor baxmaları hakimiyyəti qəti qərarlar verməyə vadar edib. Dövlət büdcəsindən külli miqdarda mənimsəməyə görə "Azİmport" rəhbəri Rəşad Məmmədovun işdən çıxarılması ilə başlayan və iş adamlarının həbsi ilə davam edən bu proses də göstərir ki, bu qərar məhz prezident İlham Əliyevin ölkədə talana son qoyulması barədə qəti göstərişindən sonra başlayıb. Məlumatlarda o da deyilir ki, iqtidar Avropa Oyunlarından sonra ölkədə iri miqyaslı antikorrupsiya planını gerçəkləşdirməyə başlayacaq. Bu planın yekunu olaraq isə dövlət xərclərinin azaldılması və optimallaşdırılması üçün bir neçə nazirlik və dövlət komitəsinin ləğvi, birləşdirilməsi və yenidən təşkili barədə qərarlar qəbul ediləcək. Bu prosesdə bir neçə yüksək rütbəli məmurun işdən çıxarılması və cəzalandırılması gözlənilir. Ciddi yoxlamalar və struktur islahatları korrupsiya riskinin yüksək olduğu sahələri əhatə edəcək.

Bu sırada Nəqliyyat Nazirliyi ilə "Azərsu" ilk sırada gəlir. Çünki "Azərsu" ASC Nəqliyyat Nazirliyindən sonra büdcəsindən ən böyük vəsait alan qurumlardan biri, bəlkə də birincisidir. Üstəlik, bu dövlət qurumları hər il beynəlxalq maliyyə təşkilatlarından da ya kreditlər alır, ya da dəyəri milyonlarla ölçülən birgə layihələr həyata keçirirlər. Hökuməti narahat edən isə budur ki, həm yollara, həm su və kanalizasiya təchizatına ayrılan milyonlara baxmayaraq, hər iki qurumun məsul olduğu sahələrdə hələ də ciddi problemlər qalmaqdadır. Məhz bu səbəblərdən də ölkənin ən çox yeyinti olan sahələrindən birinə rəhbərlik edən Z.Məmmədovla "Azərsu" rəhbəri Qorxmaz Hüseynovun iyundan sonra postlarından kənarlaşdırılacağı gözlənilir. Avropa Oyunları ərəfəsi paytaxtda sərnişin daşınmasının nəqliyyat naziri Ziya Məmmədova məxsus "Transqeyt" şirkətinin monopoliyasından alınması, Bakı yollarının təmir-bərpası funksiyasının Nəqliyyat Nazirliyindən alınıb Bakı Şəhər İcra Hakimiyyətinə verilməsi nazirin "gedir" xəbərlərini bu dəfə daha real edir.

"Azərsu"ya 2011-ci ildən rəhbərlik edən Qorxmaz Hüseynovun da korrupsiya əməlləri barədə mətbuatda yetərincə məlumatlar dərc edilib. Q. Hüseynovun "Azərsu"da özünə qohumlarından ibarət komanda yaratdığı, milyonların dövr etdiyi podratçı şirkətlərin az qala hamısının onun yaxın adamlarına aid olması barədə xəbərlər də yeni deyil.

Məlumatlara görə, iqtidar Asiya İnkişaf Bankının "Şəhər su təchizatı və kanalizasiya investisiya proqramı-3" layihəsi çərçivəsində güzəştli şərtlərlə 150 milyon dollar kreditin təyinatı üzrə xərclənib-xərclənməməsini araşdırır. Məlumatlara görə, Asiya İnkişaf Bankı ölkəmizin 11 rayonunda beynəlxalq layihələri maliyyələşdirir və bu sərmayə 180 milyon dollar təşkil edir. Bu layihələrin icrası əsasən Qorxmaz Hüseynova məxsus və qaynı tərəfindən idarə olunan "Hidro-İnsaat"a həvalə olunur. "Hidro-İnşaat Servis" MMC 2011-ci ildə Qorxmaz Hüseynovun qaynı Namiq Cəbrayılov tərəfindən təsis olunub. Bu MMC "Azərsu"nun bir neçə milyonluq layihələrinə cəlb olunub.

İddialara görə, nəqliyyat nazirinin müavini Musa Pənahovun oğluna da bu layihənin icrasında yenə geniş "şəriklik" verilib. Fuad Pənahovun rəhbəri olduğu "Global-A Group" inşaat şirkəti yol çəkmək, kommunikasiya xətlərinin dəyişməsi kimi bir çox mötəbər layihələrdən milyonlar əldə edib. "Global-A Group"un Salyan yolunun kommunikasiya xətləri, Sabirabad yolu, Əhmədli qəsəbəsində su sayğaclarının quraşdırılması, Göyçayda enerji xətləri, kommunikasiyalar, qaz kəmərləri, Xarici İşlər Nazirliyinin arxasından keçən magistral su xəttinin dəyişdirilməsindən milyonlarla gəlir əldə edib. Nazir müavininin oğlu "Azərsu"nun tenderlərindən o qədər pul qazanıb ki, deyilənə görə, hətta Mərdəkanın Dres adlanan ərazisində 3 mərtəbəli dəbdəbəli evi tikdikdən sonra bəyənməyib, onu söküb yenidən tikdirib. Yeri gəlmişkən, problemlərə baxmayaraq, "Azərsu" Heydər Əliyev prospektində 20 mərtəbədən ibarət yeni inzibati bina tikdirir ki, açılışı Avropa Oyunlarından sonra olacaq. 2004-cü ildən nazir müavini olan Musa Pənahov özünü Ziya Məmmədovdan sonra nazir postunda görsə də, onun da Avropa Oyunlarından sonra vəzifədən uzaqlaşdırılacağı deyilir.

Hökumətdəki bir mənbə baş verənləri şərh edərkən Avropa Oyunlarından sonra iqtidarda ciddi "təmizləmə" proseslərinin başlayacağı barədə xəbərləri təsdiq edib. Mənbə deyib ki, iqtidar Avropa Oyunlarından sonra yarana biləcək iqtisadi çətinliklərin sosial partlayışlara çevrilməməsi üçün hətta müxalifətin "Talana son!" şüarını da öz maraqlarına uyğun həyata keçirəcək. Hansı ki bunun işartıları artıq başlayan həbslərlə görünür...

❑ **"Yeni Müsavat"**

# Rəsmi Bakı üçün kritik həftə

**Rusiya Təhlükəsizlik Şurasının katibi, general-mayor, siyasətçi-xəfiyyə Nikolay Patruçşevin iki günlük Bakı səfəri bitdi. Kifayət qədər qapalı xarakter daşıyan səfərin əsas məqsədləri barədə bəzi ekspert rəyləri artıq səslənib, müxtəlif ehtimallar irəli sürülüb. Onların arasında Avropa Birliyinin 21-22 mayda Riqada keçiriləcək “Tərəfdaşlıq sammiti”nə qatılmaqdan Azərbaycanı çəkindirməklə bağlı versiya da var.**



## Azərbaycan qlobal güclərin çarpaz təzyiqi altında

### Bu ay hakimiyyətin həm Rusiya, həm də ABŞ-la münasibətləri növbəti və sərt sınaqdan keçməlidir; Patruşevlə Malinovskinin Bakı səfərləri arasında hansı əlaqə var? Paytaxtımıza Şimaldan və Qərbdən emissar axınının bəzi pərdəarxası məqamları...

Azərbaycan uğrunda Rusiya-Qərb geosiyasi savaşının hansı səviyyədə olduğunu nəzərə alsaq, əlbəttə ki, bu mülahizələrin heç birini hesabdan silmək olmaz. Hər halda, Patruşevin səfərinin iki gün (!!) sürməsi və onun şəxsən prezident İlham Əliyev tərəfindən qəbul edilməsi özlüyündə az şey demir; eyni zamanda Rusiya məxfi servis emissarının Bakıya Putinin salamı ilə yanaşı, hansısa xüsusi mesajını gətirdiyi təəssüratını yaradır.

Bu mesajın qayəsini anlamaq əslində çətin deyil. Rusiya prezidentinin, Rusiya XİN-in son bir neçə həftədə postsovet ölkələrinə ünvanlı hədələrini, o cümlədən Putinin keçmiş sovet respublikalarını Rusiya ərazisi sayması haqda açıqlamasını, rəsmi Moskvanın Riqa sammiti ilə bağlı Azərbaycan da daxil, “Şərq Tərəfdaşlığı” ölkələrini açıq şantaj etməsini yada salmaq yetər.

Yaddan çıxarmaq olmaz ki, Patruşev məhz bu hədələrin gündəmdən çıxmadığı, aktuallığını saxladığı vaxtda paytaxtımıza təşrif buyurub. Maraqlıdır ki, Kremlin belə açıq təhdidlərinə hələ ki Azərbaycan rəsmilərindən reaksiya gəlməyib. Təsəvvür edin ki, bənzər şantaj ABŞ-dan gəlib...

*****

Söz düşmüşkən, Rusiya Təhlükəsizlik Şurası katibinin ziyarətindən cəmi bir neçə gün sonra - mayın 15-də ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Tom Malinovski Azərbaycan paytaxtına təşrif buyuracaq. Artıq məlundur ki, onun Bakıda ən yüksək səviyyədə keçirəcəyi görüşlərdə Bakı-Vaşinqton dialoqunun bərpası, həbsdəki qərbyönlü siyasi məhbusların - jurnalistlər, hüquq müdafiəçiləri və QHT-çilərin məsələsi ön planda olacaq.

Ehtimallara görə, Malinovskinin görüşləri ayın sonlarında gözlənilən əfv sərəncamına da əhəmiyyətli təsir göstərə, ümumən Bakı-Vaşinqton münasibətlərində bir ılıqlıq yarada bilər. Qərbyönlülərin buraxılması, üstəlik, bunun ardınca “Azadlıq” radiosunun Bakı ofisinin fəaliyyətinin bərpa edilməsi isə avtomatik olaraq Amerikaya ciddi reverans təsiri bağışlayardı. Dövlət katibi köməkçisinin rəsmi Bakını Riqa sammitinə ən yüksək səviyyədə qatılmağa təşviq edəcəyi də ehtimallar sırasındadır.

Heç şübhəsiz, Moskva da Malinovskinin ziyarətinin sonuclarının fərqindədir və onu diqqətlə izləyəcək. Paralel surətdə bu səfərdən sonra Azərbaycanda qərbyönlü sektorun daha rahat nəfəs almasından əsla məmnun qalmayacaq.

*****

Bəs belə bir şey baş verəcəkmi? Söyləmək çətindir. Dəqiq olan odur ki, may ayının yerdə qalan hissəsi, ələlxüsus, qarşıdakı bir həftə hakimiyyət üçün kifayət qədər gərgin, kritik və əsəbi keçə bilər. Onu da qeyd edək ki, Avropa Birliyinin Riqa sammitində Azərbaycanın hansı səviyyədə təmsil olunacağı hələlik dəqiq bilinmir.

Patruşevin, Malinovskinin Bakı səfərləri hakimiyyətin qərarlılığına təsir göstərəcəkmi? Yaxın bir həftədə biləcəyik.

Yeri gəlmişkən, bir sıra azərbaycanlı analitiklər Riqa sammitinə məhz prezident İlham Əliyevin qatılmasının tərəfdarıdırlar. Onların arqumentincə, bu, ilk növbədə Azərbaycanın müstəqil xarici siyasət yürütməsinin nümayişi olardı. İkinci tərəfdən, onlar hesab edirlər ki, Rusiyadan ifrat ehtiyatlılıq milli maraqlarımıza cavab vermir. Əksinə, Kremli bir qədər də şirnikləndirə bilər.

Sammitdə məhz Azərbaycan prezidentinin iştirakının tərəfdarı olanların bir arqumenti də bundan ibarətdir ki, Rusiya Avropa Birliyi assosiativ saziş imzalayan zəif Moldova və Gürcüstana nə edə bilib ki, onlardan qat-qat güclü, energetik müstəqilliyi olan Azərbaycana nəsə eləsin?

Bu suallar hələlik açıq qalır. Dəqiq olan həm də odur ki, Azərbaycan və region uğrunda ABŞ-Rusiya rəqabəti yavaş-yavaş növbəti fazaya keçməkdədir.

❑ **Siyasət şöbəsi**




# Türkiyə Liviyaya nota verdi

**Türkiyənin Xarici İşlər Nazirliyi Türkiyənin yük gəmisinin Liviya sahillərində artilleriya atəşinə tutulması ilə bağlı Liviyaya etiraz notası göndərib. “Trend” "Anadolu" agentliyinə istinadən xəbər verir ki, bu barədə çərşənbə axşamı Türkiyənin XİN rəhbəri Mövlud Çavuşoğlu bildirib.**

Nazir vurğulayıb ki, Ankara türk gəmisinin güllələnməsini qınayır və Liviya tərəfini müqəssirlərin tapılması və cəzalandırılmasına çağırır.

Qeyd edək ki, bir gün əvvəl Liviya sahilləri yaxınlığında yerləşən Türkiyə gəmisi havadan və sudan atəşə tutulub. Atəş nəticəsində kapitan köməkçisi həlak olub, daha bir neçə ekipaj üzvü yaralanıb.



# Rusiya gəmilərinin Xəzərdə sualtı diversant axtarışı

**Rusiyanın 20-yə yaxın hərbi gəmisi və 400-ə yaxın hərbçinin iştirakı ilə Xəzər dənizində sualtı diversiyalara qarşı hərbi dəniz gəmilərinin təlimləri baş tutub.**

Virtualaz.org “RİA-Novosti”yə istinadən xəbər verir ki, bu barədə RF Cənub Hərbi Dairəsinin mətbuat xidmətindən məlumat veriblər.

“Xəzər donanması gəmilərinin Həştərxan və Mahaçqaladakı dislokasiya məntəqələrində sualtı diversiyalara qarşı hərbi təlimlər keçirilib. Təlimlərdə 20-yə yaxın hərbi gəmi, kater, digər qayıqlar və 400-ə yaxın hərbçi iştirak edib”, - məlumatda deyilir.

# “Qaz savaşı”: əsas rəqabət ABŞ və Rusiya arasındadır

### **Toğrul İsmayıl:** “Azərbaycan üçün önəmli olan əlverişli qiymətə və davamlı olaraq qaz bazarının satılmasıdır”

**Rusiya ilə Qərb arasında enerji mübarizəsi Yunanıstan üzərində savaşa çevrilib. ABŞ hökuməti Yunanıstanın “Türk axını” layihəsinə deyil, Trans-Adriatik Təbii Qaz Boru Xəttini (TAP) dəstəkləməsinə çalışır.**

Yunanıstanın yeni solçu hökumətinin Rusiyayönlü siyasi kursa meyllənməsi Qərbdə narahatlıqla qarşılanıb. Hazırda ABŞ “Türk axını” layihəsinə qoşulan Yunanıstan və Makedoniya kimi dövlətlərə təzyiq etməyə çalışır. Rusiya mətbuatı son günlər Makedoniyada baş verənlərə diqqət çəkərək yazır ki, ABŞ bu ölkədə çevriliş hazırlayır və sözəbaxmaz baş naziri dəyişmək üçün müxalifətə ciddi maliyyə və siyasi dəstək verir. Mətbuatın iddiasına görə, Makedoniyanın “Türk axını”na qoşulması barədə qərarından sonra bu ölkədə vəziyyətin gərginləşməsi Vaşinqtonun hazırladığı planların tərkib hissəsidir.

Vaşinqton TAP layihəsini ləngidən, Rusiyanın “Türk axını” layihəsinə qoşulmağa qərarlı olan Yunanıstana da təzyiq göstərmək üçün xüsusi elçisini Afinaya göndərib. Mayın 8-də ABŞ Dövlət Departamentinin enerji resursları bürosunun xüsusi nümayəndəsi Amos Hoxşteyn Afinada Yunanıstanın energetika və təbii ehtiyatlar naziri Panaiyotis Lafazanislə danışıqlar aparıb.

Danışıqlardan sonra amerikalı diplomat açıq bildirib ki, ABŞ Yunanıstanı “Türk axını” layihəsindən imtina etməyə çağırıb. Diplomat bunun əvəzində Yunanıstana Azərbaycan qazını Avropaya nəql edəcək TAP kəməri layihəsini dəstəkləməyi təklif edib. Vaşinqton hesab edir ki, Yunanıstan TAP layihəsinə dəstək verməklə Qərb investorları üçün cəlbediciliyini artıracaq və Avropa İttifaqının Rusiya qazından asılılığını azaldacaq. Diplomatın bildirdiyinə görə, “Türk axını” iqtisadi əsası olan layihə deyil və açıq-aşkar siyasi mahiyyət kəsb edir.

Göründüyü kimi, artıq açıq şəkildə Vaşinqton region dövlətlərini Rusiyanın yeni qaz layihəsindən çəkindirərək TAP-a qoşulmasına nail olmağa çalışır. Bununla bağlı diplomatik səylər açıq şəkildə ortadadır. Təbii ki, bu məsələdə ABŞ-ın dövlət maraqları var və Vaşinqton Avropanın enerji təhlükəsizliyini möhkəmləndirmək, onu rus qazı asılılığından qurtarmaq üçün alternativ layihələrə dəstək verir. Ancaq eyni zamanda bu proses həm də istər-istəməz Azərbaycanı Rusiya ilə enerji (hələlik) rəqibinə çevirir.




**Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin dosenti, politoloq Toğrul İsmayılın fikrincə, Yunanıstana önəm verilməsi Amerikanın maraqlarından irəli gəlir. ABŞ-ın region ölkələrinə “Türk axını” layihəsinə qatılmayıb, TAP-ı dəstəkləməsi üçün təzyiq göstərdiyini qeyd edən ekspertə görə, bu, geniş mənada Rusiya-Qərb qarşıdurmasının bölgəyə təzahürüdür:** "ABŞ TAP-ın Yunanıstan üzərindən Avropaya nəqlinə önəm verir. Burda strateji seçim var. Rusiyanın təklif etdiyi rus qazının Yunanıstan üzərindən nəqli Qərbin maraqlarına cavab vermir.

Amerika əslində Avropa enerji təhlükəsizliyi və çeşidlənməsini təklif edir. Belə olduğu zaman çeşidlənmə qiymətlərə, təhlükəsizliyə siyasi təsirlərin azalmasına çalışır. Yeni Avropa Rusiyadan kənar mənbələrə çıxmaqla Moskvanın qazdan siyasi məqsədlər üçün istifadəsində əl-qolunu bağlaya biləcək".

**T.İsmayıl deyir ki, Azərbaycan üçün hansı layihənin olması önəmli deyil, önəmli olan TAP üzərindən qazın Avropaya daşınması və bazar qiymətinə satılmasıdır:** “Azərbaycan üçün önəmli olan əlverişli qiymətə və davamlı olaraq qaz bazarının satılmasıdır. Türkiyə də bu layihələrlə özünün enerji təhlükəsizliyini möhkəmləndirmək niyyətindədir. Türkiyə üçün önəmli olan bu layihələrdə aktiv yer almasıdır. Dolayısı ilə nə Azərbaycan, nə də Türkiyə bu layihələri anti-Rusiya siyasəti kimi aparmırlar. Burda əsas rəqabət ABŞ və Rusiya arasındadır. Amerika Avropaya enerji bazarını çeşidləndirmək və Rusiyanın qaz bazarında monopolist rolunu sıradan çıxarmaq istəyir.

Rusiya Azərbaycanı rəqib olaraq gördüyü üçün rədd edir və dolayısı ilə Avropa və Amerika ilə əməkdaşlığa sövq edir. Ehtiyatlar baxımından müqayisə düzgün olmasa da, Rusiya qaz bazarında rəqiblərini zəiflətmək istəyir".

❑ **KƏNAN**




# Konstitusiya Məhkəməsi dollar krediti ilə bağlı qərarı yubadır

## Əkrəm Həsənov: “Banklar dollarla həmin kreditlər üzrə uçot dərəcəsi istisna olmaqla, bütün faiz və digər gəlirlərindən məhrum edilməlidir”

**Konstitusiya Məhkəməsinin dollarla götürülən kreditlərlə bağlı qərarı yubanır. Əksər ekspertlər qərarın bankların xeyrinə olacağından narahatdır. Məsələ ilə bağlı məhkəmənin keçirilən iclasında yeddi çıxışçıdan dördü vətəndaşların mövqeyini müdafiə edib. Əksər çıxışçılar əhalinin xeyrinə arqumentlər səsləndiriblər. Mərkəzi Bank hüquqi arqumentlər gətirə bilməyib və ölkənin maliyyə sisteminin çökəcəyinə işarə edib. Ekspertlər bu qənaətdədir ki, məhkəməyə təzyiq var və bu səbəbdən qərar bankların xeyrinə ola bilər.**

**Hüquqşünas Əkrəm Həsənov** məsələ ilə bağlı bildirib ki, Konstitusiya Məhkəməsinə məsələnin hüquqi təhlilini əks etdirən növbəti, ikinci məktubunu göndərib: “Məhkəmənin 7 may tarixli iclasında Mərkəzi Bankın, Bakı Apelyasiya Məhkəməsinin və Milli Məclis Aparatının nümayəndələrinin cəfəng hüquqi arqumentlərinə və Konstitusiya Məhkəməsinə təzyiq etmələrinə münasibət bildirmişəm. Səfeh və həyasız dəlilləri darmadağın etmək üçün başqa yolum yoxdur. Elə yazmışam ki, istənilən absurd əsaslandırmanın cavabını indidən və ətraflı verim ki, yekun qərarda o, yer almasın”,- deyə ekspert bildirib.

**Ə.Həsənovun sözlərinə görə, vətəndaşların mövqeyini dəstəkləməyən üç nəfər heç nəyə əsaslanmadan demişdi ki, guya Konstitusiyanın 19-cu maddəsi və Mülki Məcəllənin 439.1-ci maddəsi banklara aid deyil:** “Guya kredit münasibətlərində pul ödəniş vasitəsi kimi çıxış etmir və kredit pul öhdəliyi deyil. Bununla xarici valyutada olan kreditlərin qanuni olduğunu göstərmək istəyirlər. Ay nə bilim, kredit münasibətində pul ödəniş vasitəsi deyil, adi əşyadır, ona mülkiyyət hüququ birindən digərinə keçir və s. Sanki digər münasibətlərdə pul əşya deyil və ona mülkiyyət hüququ keçmir. Nədir onda: insan, heyvan, yoxsa bitki? Bu məntiqlə qarajda duran avtomobil də nəqliyyat vasitəsi deyil, adi əşyadır. Ay nə bilim, məişətdə ödəniş dedikdə nəyinsə qiymətinin ödənilməsi başa düşülür, buna görə də pul yalnız bu halda ödəniş vasitəsidir və sair... Məişət baxışlarını hüquqi müstəviyə keçirirlər, az qala ”oğru dünyası"nın dili ilə danışırlar. Eyni məntiqlə deyə bilərlər ki, hərbi xidmətə getməyən kişi, doğmayan isə qadın deyil, amma insandır. Bilmirsən güləsən, yoxsa ağlayasan belə arqumentlərə".

**Ə.Həsənov bildirib ki, nəinki qanunvericiliyə, həmçinin KM-in əvvəlki qərarlarına və Mərkəzi Bankın sənədlərinə istinad edərək bunun tam əksini sübut edir:** “Bundan da tutarlı arqument ola bilərmi?! Konstitusiya Məhkəməsi və Mərkəzi Bank öz əvvəlki və qüvvədə olan sənədlərini necə danacaqlar indi? Belə ki, Konstitusiya Məhkəməsinin əvvəlki qərarlarına görə, kredit pul öhdəliyidir. Mərkəzi Bankın normativ sənədlərinə əsasən isə pul kredit münasibətləri əsnasında da ödəniş vasitəsi qismində çıxış edir. Deməli, xarici valyutada olan kreditlər qanunsuzdur!

Buna görə də banklar həmin kreditlər üzrə bütün faiz və digər gəlirlərindən məhrum edilməlidir. Uçot dərəcəsi olan 3,5 faiz istisnadır. Devalvasiya nəticəsində əldə etdikləri 34 faizlə kifayətlənsinlər. Kompromis qərar da məhz budur! Banklar faizlərini itirəcək, əhali isə devalvasiya nəticəsində dollar borclarının manat ekvivalentinin artmasında zərər çəkəcək. Hökumət bu zərəri yumşalda bilər, əlbəttə".

**Onun sözlərinə görə, istənilən digər yanaşma ya bankları çökdürəcək, ya da əhalinin vəziyyətini ciddi ağırlaşdıracaq:** “Ombudsmanın təklifinə əsasən banklar həm faizləri itirir, həm borcu köhnə məzənnə ilə manatla geri alır. Əhali həm devalvasiya nəticəsində zərər çəkir, həm də faizləri ödəyir. Başda Mərkəzi Bank olmaqla, həmin 3 şəxs məhz sonuncunu təklif edir və bu zaman Konstitusiya Məhkəməsini açıq-aşkar təhdid etməkdən çəkinmir: nə bilim, bankların xeyrinə qərar verməsəniz, maliyyə sistemi çökəcək, iqtisadiyyat ağır vəziyyətə düşəcək və sair. Sanki ölkə iqtisadiyyatı bankların gəlirlərinin bir qədər azalmasından tam asılıdır. Amma əhalinin vəziyyətinin ciddi pisləşməsindən heç asılı deyil. Mərkəzi Bank manatı emissiya edən qurum ola-ola faktiki dollarlaşmaya rəvac verir. Kimə lazımdır belə Mərkəzi Bank?”.

**Ə.Həsənov deyib ki, ən əsası isə digər yanaşma, fərqli qərar qanunauyğun olmayacaq:** “Ümumiyyətlə, hüquq sisteminə, qanunların şərhi qaydasına zərbə vuracaq. Hüquqi sistemi normal olmayan ölkədə iqtisadiyyat, o cümlədən bank sistemi inkişaf edə bilməz. Konstitusiya Məhkəməsi Mərkəzi Bankın və bankların səhvlərini rəsmiləşdirən və onlara hüquqi don geyindirən orqan deyil. Konstitusiya Məhkəməsi heç nəyə baxmadan yalnız hüququ, qanunun aliliyi prinsipini və məntiqi rəhbər tutmalıdır. Maraqlıdır ki, Mərkəzi Bankı Konstitusiya Məhkəməsində həmişə hüquqşünaslar təmsil edib. Yalnız 19 noyabr 1999-cu il tarixdə hüquqşünasla bərabər Elman Rüstəmov özü də Konstitusiya Məhkəməsinin iclasında iştirak etmişdi və o zaman məhkəmənin qərarı Mərkəzi Bankın əleyhinə, kommersiya banklarının isə xeyrinə olmuşdu. Son iclasda Rüstəmov özü yox idi. Amma hər halda, Mərkəzi Bankı hüquqşünas deyil, iqtisadçı təmsil edirdi. Əlbəttə, çox güman ki, Mərkəzi Bankın hüquqşünasları məntiqsiz və qanunsuz mövqeyi özləri səsləndirmək istəməyib, utanıblar. Amma inanmaq istərdim ki, bu, həmçinin ədalətli qərarın qəbul ediləcəyinə də bir işarədir”.

Qeyd edək ki, Konstitusiya Məhkəməsinin dollarla götürülən kreditlərlə bağlı nə zaman qərar verəcəyi dəqiq deyil.

❑ RÖYA

# Bulvarda qiymətlər yay gəlməmiş qalxıb

## Avropa Oyunları ərəfəsində burada xidmət səviyyəsi qənaətbəxş deyil; **Bulvar İdarəsinin rəsmisi:** “Bütün idarə və obyektlər gücləndirilmiş iş rejimində işləyəcək...”

**Avropa Oyunları ərəfəsində ölkəmizə gələcək qonaqların üz tutacağı məkanlardan biri də yəqin ki, bulvar olacaq. Bəs bulvardakı ab-hava, xidmət səviyyəsi necədi? Gələcək qonaqların istirahəti, əylənməsi istənilən səviyyədə təmin ediləcəkmi? Bütün bunları öyrənmək üçün Dəniz kənarı Milli Parka üz tutduq.**








Qeyd edək ki, havaların istiləşməyə başlaması ilə bulvarda bir canlanma vardı. Hətta ərazidə idman edən insanlarla da rastlaşdıq. Oyunların başlamasına hələ bir müddət qalsa da, bulvarda əcnəbi qonaqlar da gözə dəyirdi. Hətta öz uşaqlarını müxtəlif atraksionlarda əyləndirən xarici qonaqlarla da rastlaşdıq.

Xidmət səviyyəsinə gəlincə, əcnəbi qonaqların daha çox olduğu çayxanalardan birini seçib, çay sifariş edib oturduq. Çay dəsgahları 15-30 manat arasında dəyişirdi. Qənd və limonlu sadə çay isə 2 manata, yalnız bir növ mürəbbəli çay 5-8 manat arası, şokoladlı çay isə 7 manata idi. Ancaq xidmət səviyyəsinin bir çox çay evlərində o qədər də yüksək səviyyədə olmadığını müşahidə etdik. Belə ki, həmin məkanlarda çay sifariş edib ən azı 10 dəqiqə gözləməli olursan. Ofisiantların ləng işləməsi, gətirdikləri çayın açıq rəngli olması və ya tam dəmlənməməsi, bəzən çayniklərin qapaqlarının həmin çaynikə uyğun gəlməməsi, buna görə də qapağı tərsinə qoymaları xidmət səviyyəsinin aşağı olmasından xəbər verirdi. Onu da müşahidə elədik ki, çay evlərində işləyən ofisiantlar xarici dil bilmirlər. Gələn turistlər isə onları ya seçdikləri menyunun (mürəbbə, şokolad) şəklini göstərməklə başa salır, ya da azəricə bir iki söz deyərək sifariş verirdilər.

Atraksionlara gəlincə isə əvvəllər 5 dəqiqəsi 3 manat olan atraksionlar havaların isinməsi və bulvara üz tutanların sayının artması ilə dəqiqəni azaldıb qiyməti cüzi də olsa artırmışdılar. Belə ki, əksər atraksionların artıq 5 dəqiqəsi deyil, 3 dəqiqəsi 3 manat idi. Uşaqların tullanaraq əylənməsi üçün olan atraksionun qiyməti 5 dəqiqə üçün 4 manat, körpə uşaqlar üçün setkada kiçik topların içərisində oynamaq 5 dəqiqəsi 1 manat, vikinq adlanan atraksionun 3 dəqiqəsi isə 2 manat idi. Atraksionların hamısı da demək olar ki, işlək vəziyyətdə idi və uşaqlarla dolub-daşırdı...

**Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov Bakı Oyunları ərəfəsində bulvarda bir çox yeniliklərin, xidmətlərin olacağını dedi:** “Biz bilirik ki, yay oyunları zamanı şəhər sakinlərinin və gələn qonaqların böyük hissəsi bulvar ərazisinə üz tutacaq. Ona görə də ciddi hazırlaşmışıq. Nəzərə almaq lazımdır ki, bulvar ərazisində üç idman meydançası var. Bunlar Bakı İdman Sarayı, ”Kristal Hall" konsert idman kompleksi və Su Oyunları İdman Sarayıdır. Xatırladım ki, Su Oyunları Sarayı yenicə istifadəyə verilib. Ona görə də bulvar ərazisində həm idmançıların, həm də onlarla gələn heyətin, turistlərin, jurnalistlərin sayı kifayət qədər çoxalacaq. Onların rahatlığı üçün idarə çalışacaq ki, bulvarın hər yerində internetə qoşulmaq üçün VF şəbəkəsi olsun".

**N. Məcidov ərazidə fəaliyyət göstərən işçilərin artıq xarici dil kurslarına göndərildiklərini də dedi:** “Paytaxtımıza gələn qonaqların post-terminallara böyük tələbatı olacaq. Biz çalışacağıq ki, bütün obyektlərdə, ticarət mərkəzlərində post-terminallar işlək vəziyyətdə olsun. Bu istiqamətdə artıq işlər aparılır. Bizim kifayət qədər xarici dildə danışan işçimizin olmasına baxmayaraq daha 32 nəfəri hazırda dil kursuna göndərmişik. Onlar bizim mühafizə xidmətinin əməkdaşlarıdır. Bu da ona görədir ki, mühafizə xidmətinin əməkdaşları xüsusi uniformada bulvar ərazisində gəzəcəklər. Gələn qonaqlar da nəsə soruşmaq üçün əsasən onlara yaxınlaşacaqlar. Ümumiyyətlə, hər bir obyektdə ən azı, bir nəfər də olsa xarici dil bilən olacaq. Bütün idarələr və obyektlər gücləndirilmiş iş rejimində işləyəcək. Qatarlarımız üç marşrut üzrə işləyirdi. Onlar qalmaq şərti ilə yeni marşrutlar açılacaq ki, turistlər istədikləri kimi bulvarın bir başından o biri başına qədər müəyyən yerlərdə dayanacaqlarda dayanmaq şərti ilə hərəkət etsinlər. Gəmilərimiz də daha çox işləyəcək. Səhər daha tez işə başlayacaq, gecə isə fəaliyyətlərini gec dayandıracaq. Digər lazımi tədbirlər də görülür”.

❑ Günel MANAFLI

Fotolar müəllifindir



# Kremldən Bakıya növbəti Qarabağ şantajı

## Separatçı bölgədəki 3 may “seçkiləri” Rusiyanın ərazi bütövlüyümüzə qarşı ikili münasibətini üzə çıxarıb; bu yanaşma müharibə variantında Moskvanın özünü necə aparacağı məsələsini təzədən aktuallaşdırır; Bakı-Tiflis hərbi alyansı yarana bilər...

**Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsində mayın 3-də növbəti qanunsuz “parlament seçkiləri” keçirildi. Həmin “seçkiləri” erməni lobbisinin paraları hesabına bir çox ölkələrdən tutub gətirilmiş üzdəniraq müşahidəçilər izlədilər. Ancaq bu, təkcə erməni icmasının canfəşanlığının nəticəsi deyildi. Yəni sırf maddi amildən (maraqdan) qaynaqlanmırdı.**

Məsələn, “müşahidəçilər” arasında separatçı Cənubi Osetiya “parlamenti”nin spikeri Anatoli Bibilov da olub. Və o, əslində Cənubi Osetiyanı yox, Rusiyanı təmsil edib. Başqa sözlə, bilavasitə Kremlin sifarişini yerinə yetirib. Ən azı ona görə ki, 2008-ci ilin yay hərbi kampaniyasından - “5 günlük müharibə”dən sonra - Abxaziya və Cənubi Osetiyanın “müstəqilliyini” Moskvanın birtərəfli qaydada tanımasından, orada böyük sayda rus hərbi hissələri yerləşdirildikdən sonra bu qurumların söz sahibliyi bütünlüklə “xilaskar” ölkəyə - Rusiyaya keçib.

Beləcə, bəlli olur ki, Azərbaycan ərazisində növbəti qanunsuz seçkilərə legitimlik donu geydirməkdən ötrü Rusiya da bacardığını edib - “müşahidəçi” qismində Gürcüstanın separatçı bölgəsinin qondarma parlamentinin spikerini Xankəndinə yollamaqla. Bundan əlavə, faktdır ki, qanunsuz seçkilərini “müşahidə eləmək” üçün Rusiyanın bəzi deputatları da separatçı bölgədə olublar və bu fakta hələ ki, rəsmi Moskvanın hər hansı qınayıcı reaksiyası olmayıb.

***

Bu, Moskvanın Azərbaycana münasibətdə, yumşaq desək, qeyri-dost yanaşmasıdır, lap dəqiqi, şantajıdır. Çünki Rusiyanın “dobro”su olmadan nə Anatoli Bibilov, nə də Duma üzvləri aydındır ki, bu addımı ata bilməzdilər.

Gürcü ekspertlərinin məsələyə verdikləri şərhlər də eyni qənaəti təsdiqləyir. İş ondadır ki, həmin Bibilov Dağlıq Qarabağda Ermənistan parlamentinin spikeri Qalust Saakyanla görüşüb və bu fakt haqlı olaraq rəsmi Tiflisin sərt etirazına səbəb olub. Ermənistanın Gürcüstandakı səfiri XİN-ə çağırılıb, ondan izahat tələb edilib. Lakin rəsmi İrəvan bu hərəkətə hələ də arqumentli izah tapa bilməyib. Tiflis isə gözləyir.

Ancaq şübhə yox ki, bu məsələdə də İrəvan Moskvanın təlimatı ilə hərəkət edib. Yəni belə qənaət hasil olur ki, Bibilov vasitəsilə Moskva həm Azərbaycanı, həm də Gürcüstanı şantaj edib. Necə deyərlər, “bir güllə ilə iki dovşan vurub”. Fəqət, vura bilibmi?

***

Bəzi siyasi müşahidəçilər İrəvanın Tiflisə qarşı belə açıq




de-marşını Gürcüstanın 24 aprel mərasimlərində iştirak üçün Ermənistana aşağı ranqlı nümayəndə heyəti göndərməsindən rəsmi İrəvanın narazı qalması və əvəz çıxması ilə izah edirlər *(Gürcüstan 24 aprel “soyqırım” törənlərində parlament sədrinin müavini səviyyəsində təmsil olunub).*

**İnsidenti vesti.az-a şərh edən gürcü ekspert Gela Vasadze belə görüşlərin təsadüfi olmadığı və təxribat xarakter daşıdığını deyir:** “Təxribatların müəllifi isə Kremldir. Belə görüşlər əlbəttə ki, təsadüfi baş vermir. Qafqazlıların yaxşı bir məsəli var: "Elə et ki, nə şiş yansın, nə də kabab". Bax, bunu Ermənistan parlamentinin spikeri bacarmayıb".

**Siyasi şərhçi Vasili Papava öz növbəsində görüşün Gürcüstana münasibətdə qeyri-dost addım olduğunu vurğulamaqla yanaşı, belə bir aktın ikili anlam daşıya biləciyini söyləyib:** “Birincisi, İrəvan Gürcüstana münasibətdə öz siyasətinə təzədən baxmağa başlayıb ki, bu da Ermənistanın özü üçün neqativ nəticələrə gətirə bilər. İkincisi, Ermənistan Dağlıq Qarabağda separatçı qurumun nümayəndə heyətinin qəbul eləmək məsələsində müstəqil iradə yiyəsi olmayıb. Nəzərə alsaq ki, Bibilov bütünlüklə Moskvanın direktivlərindən asılıdır, o zaman bunu Kremlin ermənilərlə gürcülərin arasını vurmaq cəhdi kimi qiymətləndirmək lazım gəlir. Ermənistan XİN-in insidentlə bağlı gürcü tərəfinə rəsmi cavabının gecikməsi də onun göstəricisidir ki, həmin görüş axıradək İrəvanla razılaşdırılmayıb. Ancaq İrəvanda başa düşməlidirlər ki, Gürcüstana münasibətdə belə qeyri-diplomatik addım ayrı reaksiya doğura bilər - Tiflis hərbi sahədə Bakı ilə yaxınlaşmağa başlayar. Lakin əməkdaşlığın bu forması indi artıq Güney Qafqazda sülh və sabitliyin qorunması çərçivəsində strateji tərəfdaşlıq xarakteri daşıyacaq”.

***

Əlavə edək ki, rəsmi Moskva Ankara, Tiflis, Tehran, Kiyev, Vaşinqton, Avropa Birliyindən fərqli olaraq Dağlıq Qarabağdakı 3 may “seçkiləri”ni pisləyən ayrıca, konkret bəyanatla çıxış etməyib. Bu azmış kimi, separatçı Bibilovu Azərbaycanın işğal altındakı bölgəsinə saxta seçkiləri izləmək üçün göndərməklə, öz deputatlarının Dağlıq Qarabağa səfərinə göz yummaqla Kreml faktiki surətdə Bakını şantaj edir, ölkəmizin ərazi bütövlüyünə münasibətdə öz səmimiyyət dərəcəsini nümayiş etdirir.

Yuxarıdakı insident (Saakyan-Bibilov təması) də nəzərə alınarsa, Rusiyanın Qarabağ və digər separatçı kartlardan öz maraqlı üçün istifadə eləmək niyyətinin çox ciddi olduğunu ortaya qoyur, necə deyərlər, Rusiyanın “ipinə odun yığmağın” təhlükəli olduğunu üzə çıxarır.

Söhbət həm də yeni müharibə vəziyyətlərinin yaranacağı təqdirdə Moskvanın özünü necə aparacağından gedir.

***

**“Rusiya Qarabağı qaytarmaqda Azərbaycana mane ola bilər”. Bunu isə 2-ci Dünya müharibəsinin veteranı, Azərbaycan prezidentinin hərbi məsələlər üzrə keçmiş müşaviri Tofiq Ağahüseynov deyib. O, şübhə edir ki, Rusiya Azərbaycana öz ərazi bütövlüyünü güc yolu ilə bərpa etməyə mane olmayacaq. Bu barədə o, “İnterfax-Azerbaydjan”a açıqlamasında bildirib.**

“Şəxsən mən əminəm ki, Azərbaycanın Milli Ordusu bu gün ərazilərin azad edilməsi vəzifəsindən öhdəsindən sərbəst şəkildə gələ bilər. Ancaq bu yöndə daim bir sual var: kim bu prosesə mane ola bilər? Söhbət Rusiyadan gedir. Hələlik aydın deyil: Azərbaycan hərbi yola əl atsa, Rusiya özünü necə aparacaq” - bildirib eks-müşavir.

“Bizim ölkəmiz tərəqqi dövrünü yaşayır. İstənilən müharibə isə dövlətin deqradasiyasına gətirir. Ona görə də ölkəmiz problemi dinc yolla həll eləməyə çalışır və bu istiqamətdə böyük işlər görülüb” - əlavə edib o.

***

Yekun yerinə qeyd edək ki, Dağlıq Qarabağdakı 3 may qanunsuz seçkiləri bir daha Azərbaycanın ərazi bütövlüyü məsələsində qonşu dövlətlər, Minsk Qrupu həmsədrləri, Qərb və beynəlxalq təşkilatlar üçün özünəməxsus lakmus kağızı rolu oynamış oldu. Artıq kimin bu kağızı hansı “rəngə” boyadığı ortadadır. O sırada Rusiyanın separatçı bölgədəki saxta seçkilər fonunda ərazi bütövlüyümüzə münasibətdə üzə çıxan ikili yanaşması müharibə variantında onun davranışı məsələsini təzədən gündəmə gətirir.



# Azərbaycan-Türkiyə birgə təlimləri başladı

## Naxçıvandakı təlimləri Zakir Həsənov şəxsən müşahidə edəcək...

**Azərbaycan-Türkiyə birgə taktiki təlimləri başlayıb. Müdafiə Nazirliyindən verilən məlumata görə, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən mayın 12-dən Bakıda və Naxçıvanda iki ölkənin silahlı qüvvələrinin qoşun növlərinin cəlb olunması ilə birgə taktiki təlimlər başlayıb.**

Təlimlərin Naxçıvanda keçirilən mərhələlərindən biri Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyə Respublikasının 3-cü ordu komandanı ordu generalı Ümit Dündarın ümumi nəzarət və müşahidəsi ilə həyata keçiriləcək.



# Səslər bölündükcə...

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**Bu il Azərbaycan və Türkiyə ilə yanaşı, bəzi digər yaxın-uzaq ölkələrdə də parlament və ya prezident seçkiləridir. Seçki ili yaşayan dövlətlər sırasında Polşa da var. Bu ölkədə artıq prezident seçkilərinin birinci turu arxada qalıb. Ən maraqlısı odur ki, ilk turda hazırkı prezident Bronislav Komorovski nəinki 50%+1 səslə qalib gəlib ikinci müddətə yoluna rahat davam edə bilməyib, hətta əsas rəqibindən (34,76) az səs toplamaqla yalnız ikinci tura adlaya bilib - 33,77 faiz.**

Polşadakı seçkilər, ümumiyyətlə, bu ölkənin demokratik inkişaf təcrübəsi bir neçə cəhətdən Azərbaycan üçün xeyli ölçüdə önəmli sayılmalıdır. Əvvəla, Polşa da sosialist şinelindən çıxıb, vaxtilə sovet-sosialist düşərgəsinin tərkib hissəsi olub. Lakin vətəndaş qarşıdurmasından da keçsə, aparılan köklü siyasi-iqtisadi islahatlar sayəsində yekunda tərəqqi yoluna çıxmağı bacarıb və hazırda Avropanın, Avropa Birliyi və NATO-nun sayılıb-seçilən ən sanballı dövlətlərindəndir.

Polşa artıq demokratik idarəçilik sistemi olan ölkədir. Burada hakimiyyət bir neçə dəfə seçkilərlə dəyişdiyindən demokratik ölkə standartına çoxdan uyğun hesab edilir. Yəqin ki, mayın 24-də təkrar səsvermədən sonra növbəti dəfə bunun şahidi olacağıq: ali hakimiyyətdəki bir qüvvəni və ya şəxsi xalqın iradəsi ilə başqa birisi əvəzləyəcək.

Ancaq bununla Polşa dövləti nə dağılacaq, nə də zəifləyəcək. Sonu da çatmayacaq. Tam əksinə, daha da güclənəcək, çiçəklənəcək. Çünki xalqın iradəsi olan yerdə məğlubiyyətdən, gerilikdən söhbət gedə bilməz. Çünki demokratiya - "rəngarənglikdə birik, rəngarənglikdə güclüyük" deməkdir.

Ən ümdəsi, ortada demokratiya təcrübəsi var - səslər nə qədər parçalansa, dövlət bir o qədər sağlam rəqabətdən udar, bütünləşər, seçkilərdən daha güclü çıxar. Və əksinə, vay o məmləkətlərin halına ki, orada azad və ədalətli seçkilərin heç iyi də gəlmir, xalq hakimiyyətin səsvermə ilə dəyişməsinin nə olduğundan bixəbərdir, seçkilərində "qaliblərin" səs faizi isə on illər boyu 80%-dən aşağı düşmür.

İndi sonuncuların da dünyadakı yerinə, roluna baxın, hər 4-5, uzağı 10 ildən bir sükançısının dəyişdiyi demokratik ölkələrə də. Ümumiyyətlə, qlobal siyasəti müstəsna olaraq demokratik məmləkətlər, Qərb dünyası yönəldir, idarə edirsə, bunun özü hər şeyi demir ki, azad seçkilərin misilsiz üstünlüyünü əyani göstərmir ki?

Bu xüsusda Azərbaycanın doğrudan da postsosialist Polşasından götürəsi, öyrənəsi çox şeyi var. Polşaya həm də ona görə diqqəti artırmalıyıq ki, ABŞ-ın nüfuzlu "Stratfor" qeyri-hökumət analitik təşkilatı *(ona "kölgə kəşfiyyatı" da deyirlər)* bir neçə ay öncə bu ölkənin yaxın 10 ildə Almaniyanı da üstələyərək, Avropa Birliyinin mərkəzi dövləti olacağını proqnoz edib. Yəni önümüzdəki illərdə Varşava Avropa və dünya siyasətində qat-qat ciddi söz sahibliyinə malik olacaq.

Bizim isə Qarabağ kimi böyük problemimiz də var. Polşanın güclü, önəmli dövlət olaraq Qarabağ məsələsinə yaxşı mənada təsirinin artmasını arzu ediriksə, o zaman onunla yaxınlaşmaq üçün ilk olaraq ortaq *(ümumbəşəri)* dəyərləri bölüşməyi bacarmalıyıq. Özü də Ermənistanı qabaqlayaraq...

Demirik ki, birdən-birə Polşanın iqtisadi, demokratik göstəricilərinə çataq, onu keçək, demokratik inqilab edək. Bu, bəlkə mümkün də deyil. Ancaq yanımızda qardaş Türkiyənin demokratik idarəçilik təcrübəsi də var axı. Di gəl, on illərdir "bir millət iki dövlət" deyənlər "bir millət - iki fərqli seçki" siyasətindən qurtula bilmirlər.

O səbəbdən nəticə, vəziyyət Norveçin Azərbaycandakı sabiq səfiri Steynar Gilin dediyi kimi olaraq qalır: "Sizdə hələ də baş nazir Artur Rəsizadədi? Mən səfir olanda da o idi..."

*****

Gerilik, reqress brendlərindən və rəmzlərindən qurtulmaq zamanı çatmadımı?

# "Gəlmək istəyənlərə mühaciriəti tövsiyə etməzdim"

## İsveçdəki gənc ailədən ilginc mühacirət təsvirləri, düşərgə həyatının dözülməz şəraiti və fərqli məsləhətlər

**Yöteburq mühacirləri ilə bir aradayıq. "Yeni Müsavat"ın "Mühacir azərbaycanlıar" layihəsi son sürətlə davam edir. Dərdlər, problemlər, uğurlar... təxminən bənzərdir. Amma yanaşmalar bir az fərqlidir.**
**Bu dəfə də Müsavat Partiyasının fəallarından olan Rasim Cabbarov və Milana Bağırlı cütlüyü ilə söhbət edirik. Nərgiz Yaqublunun anım tədbirindən sonra bir az qəmgin, bir az məzhun əhvalda olsalar da, Kənan Hacıəkbəroğlunun evində bir araya gəlirik. İsveç reallıqlarından danışırlar, amma bir az fərqli.**



Arayış üçün deyək ki, Milana xanım uzun müddət Müsavat Divanının üzvü olmuş, İsa Qəmbərin yaxın qohumu olan Fəxrəddin Bağırovun qızıdır.

### "Məcburən burda qalırıq, İsveç bizə, mentalitetimizə uyğun deyil"

Öncə gəlişlərini, bu yad torpaqları niyə məskən seçdiklərini, necə uyğunlaşdıqlarını danışırlar. Klassik mühacir yaşantısı...

Milana Bağırlı danışır ki, İsveçə 2012-ci ilin oktyabrın 22- də gəlib. Yəni tam 2.5 ildir İsveçdə yaşayır, siyasi səbəblərə görə gəliblər.

**Rasim Cabbarov isə deyir ki, onlar seçim etməyiblər:** "Bilmirdik hara gəlirik. Sadəcə, siyasi olaylara görə gəldik. Özüm 91-ci ildən siyasi hərəkatlarda olmuşam. 2003-cü il 15-16 oktyabr hadisələrindən sonra təzyiqə məruz qaldıq. Mən Bakı Şəhər İcra Hakimiyyətində işləyirdim. Seçkilərdən sonra təzyiqlə işdən çıxardılar və mənə qarşı təzyiqlər başladı".

**M.Bağırlı:**

- Hər ikimiz İsa Qəmbərlə qohumluğumuz olduğuna görə təzyiqlərlə üz-üzə qalmışdıq. İş tapmaq, Bakıda yaşamaq çətinləşmişdi.

**R.Cabbarov:**

- 2003-cü oktyabrın 21-də işdən çıxarıldım. Ondan sonra da heç bir iş tapa bilmədik. Hər zaman siyasi təzyiqlər olurdu.

***- Rasim bəy, ümumi əhvalınızdan belə hiss edirəm ki, burda hələ də özünüzü tapa bilmirsiz, narahat görünürsüz.***

**R.Cabbarov:**

- Bura gəlmək istəyənlərə tövsiyə etməzdim. Nəinki bura, heç bir ölkəyə. Vətən bizimdir, vətəndə yaşamalıyıq. Konstitusiya hüquqlarımızdan tam istifadə etməliyik. Buna görə də hökumət şərait yaratmalıdır. 9 milyon əhalisi olan ölkənin 3 milyonu kənardadırsa, hökumət bu barədə düşünməlidir. Biz məcburən burda qalırıq. Bizim mentalitetə uyğun deyil, yaşantımıza uyğunluğu yoxdur. 41 yaşım var, bu yaşdan sonra inteqrasiya çətindir. Əziyyət çəkdiyimi isə burdakı bütün tanışlar bilir, görür.

**M.Bağırlı:**

- Şahnaz Mətləbqızı ilə Firuduna baxıb düşünürdük ki, bizə çətin olacaq. Çünki onlar bu mərtəbəyə yüksəlmək üçün xeyli iş görüblər, xeyli çətin mərhələlərdən keçiblər.

***- Rasim bəy, bura gəldiyinizə görə ilk nə zaman peşman oldunuz?***

**R.Cabbarov:**

- Düşərgəyə düşdüyümüz ilk gün yaşadım peşmançılığı. Getdim yoldaşıma dedim ki, biz səhv etmişik. Uzun müddət çəkdi depressiya. Geriyə qayıtmaq da mümkün deyildi. Belə ağır sıxıntılar, ruh halında davam etdi hər şey...

### "Çörəyi ancaq səhər yeməyində verirdilər, pulla çörək alır, o çörəyi çamadanın üstündə doğrayıb yeyirdik..."

**M.Bağırlı:**

- Öyrəşə bilmirdim heç nəyə. O dərəcədə pis idi şərait. Qaldığımız düşərgədəki otağın eni 1.5 metr, uzunu isə 3 metr idi. Türməyə bənzər bir yer idi. Yeməyi də kağızla, talonla verirdilər. 2 həftə qaldıq. Sonra bizi düşərgənin yerləşdiyi kənddə bir hotelə apardılar. Hamı dincəlirdi-filan, amma biz yaşaya bilmirdik.

***- Düşərgənin klassik çətinlikləri, hə? Doyunca yeyə bilməmək, məhrumiyyət...***

**R.Cabbarov:**

- Təsəvvür edin ki, bizə çörəyi ancaq səhər yeməyində verirdilər. Nahar, şam zamanı çörək olmurdu. Bir az pulumuz vardı, onu da çörəyə verirdik. Gedib alırdıq ki, yeməyimizi çörəklə yeyə bilək. İki çamadanımız vardı, onun üstündə çörək doğrayırdım. Beləcə doymağa çalışırdıq. Günlərin bir günü, səhərə yaxın, 5-6 saatlarında, security formasında biri girdi içəri. Dedi ki, sizin kampınız qurtardı. Həmin vaxt 17 gün idi ki, oradaydıq. 2012-ci ilin oktyabrında gəldik, 2013-cü ilin mayında oturum aldıq. Əslində üçüncü bir ölkəyə deport olmaq istəyirdik. Şəraitdən dolayı. Hər hansı birinə. Dedik ki, şərait pisdir. Amma hələlik burda qalmışıq.



**Rasim Cabbarov: "Düşərgəyə düşdüyümüz gün yoldaşıma dedim ki, biz səhv etdik..."**



**Milana Bağırlı: "İsa Qəmbərlə qohum olduğumuza görə təzyiqlərlə üz-üzə qaldıq"**



### "İcazə vermirəm ki, uşaqlar evdə İsveç dilində danışsınlar"

***- İki uşağınız var. Onlar necə, öyrəşə biliblərmi İsveç həyatına, yaşantısına? Dili öyrənirlərmi, evdə hansı dildə danışırlar?***

**M.Bağırlı:**

- Uşaqlar yaxşıdır, İsveçə öyrəşirlər. Biri bağçaya gedir. O biri bura gələndən məktəbə gedir. 1 il aşağı sinfə qoydular. Məndə dil yaxşıdır, öyrənmişəm. Rasimdə pisdir.

***- Narahat deyilsiz ki, uşaqlar öz ana dillərini unudarlar?***

**R.Cabbarov:**

- Mən qoymuram uşaqlar evdə İsveç dilində danışsınlar. Böyük oğlum 4-5 dil bilir. Murad isə Azərbaycan dilində zorla danışır.

**M.Bağırlı:**

- Narahat deyiləm ki, uşaqlar öz dilini unudarlar. Çünki biz evdə onlarla ana dilində danışırıq. Otaqlarında milli bayraqlarımız asılıb. Bayrağı görəndə qışqırırlar.

**R.Cababrov:**

- Oğlumuz Ayxan 5 yaşından futbola gedir. Ən böyük arzum burda Azərbaycanın milli formasını geyinməsidir. Çünki biz azərbaycanlıyıq və hər yerdə də öz vətənimizi təmsil etməliyik. Artıq burdakı futbol klubundan təklif gəlib. Yaxşı oynadığı üçün dərhal seçilib digər həmyaşıdlarından.

****

Uşaqların başı yan otaqda mühacir Şahnaz Mətləbqızı və Firudin Ələsgərovun, eləcə də Kənan Hacıəkbəroğlunun uşaqları ilə oynamağa qarışıb. Heç cür söhbətə çəkə bilmirəm, onların öz dünyası var. Hərdən qulaq asıram: hər cür dildə səslənirlər bir-birinə. Kənanın uşaqları daha çox Azərbaycan dilində, Şahnazla Milana xanımınkılarsa İsveç və Azərbaycan dillərində... Bütün hallarda anlaşırlar, fikirlərini, enerjilərini bir-birinə çatdırmaqda qəti əziyyət çəkmirlər. Uşaqların vahid dili olur axı: uşaq dili...

❑ Sevinc TELMANQIZI
Yöteburq İsveç

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

**Musiqi əsərlərinin yaradıcısı bəstəkardır. Bəstəkarlar musiqi bəstələyir, vokalist, müğənni və ya hansısa instrumental ifaçısı onun bəstəsini ifadə edir. Adətən bəstəkarlar əsər və ya mahnılar yazarkən xüsusi musiqi nəzəriyyəsinə əsaslanırlar. Bu isə kifayət qədər savad və istedad tələb edən sahədir.**



# Hansı bəstəkarın mahnıları daha çox sevilir?

## Yaradıcı sahə və sənət adamlarının məsələyə baxışları üst-üstə düşmür...

Professional şəkildə bəstəkarlığa yiyələnmək üçün musiqi nəzəriyyəsini, harmoniya və polifoniyanı bilmək, orkestrləmə, musiqi formaları, hər hansı musiqi alətində çalmaq qabiliyyətinə malik olmaq tələb olunur. Hazırda isə peşəkar, istedadlı bəstəkarlar sanki arxa plana keçib, musiqi anlayışı olmayanlar belə kompüterin köməyi ilə notları bir araya gətirib, aranjemanda düzəlişlər edərək, bəh-bəhlə müğənnilərə təqdim edirlər.

Keçirilən sorğulardan da məlum olur ki, əksər gənc "məşhur" bəstəkarlar dahi Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Rauf Hacıyev, Tofiq Quliyevin yaradıcılığı ilə nəinki tanışdır, bu yöndə məlumatlı olmağa belə maraqlı deyillər.

Müğənnilərin də çoxu təqdim olunan mahnıların hansı səviyyədə yazılmasına, polifonik qanunlara riayət edilib-edilməməsinə diqqət etməyərək yalnız populyarlığın arxasınca qaçmağa üstünlük verirlər. Bəs müğənnilər hazırda ən çox hansı bəstəkara üstünlük verir?

Xalq artisti İlhamə Quliyeva hazırda daha çox sevdiyi bəstəkarların adını açıqlayıb: "Eldar Mansurov, Aygün Səmədzadə, Xanım İsmayılqızını çox sevirəm. Bu siyahıda millət vəkili Novruz Aslanın da adını çəkə bilərəm. Onun "Yaşın nə fərqi var" mahnısı hər kəs tərəfindən sevilir, bəyənilir. Bir müddət bundan əvvəl dünyasını dəyişmiş, dahi Üzeyir Hacıbəyovun sonuncu yadigarı Ramiz Mirişlinin bəstələri isə misilsizdir. Ramiz müəllimin bəstələrinə olan sevgim sonsuzdur. Vaxtilə bizim Oqtay Rəcəbov, Tahir Əkbər, Emin Sabitoğlu və digər istedadlı bəstəkarlarımız olub. Onların bəstələri indi də sevilir, gənc musiqiçilər tərəfindən səhnələrdə ifa edilir".

**Müğənni Xuraman Şuşalı:** "Fikrimcə, hazırda daha populyar olan bəstəkar Nazimdir. Gövhər Həsənzadə da populyar olan bəstəkarların siyahısındadır. Əsas odur ki, mahnı səviyyəli şəkildə yazılsın, əvvəli-axırı müəyyənləşə bilsin".

**Manaf Ağayev hazırda daha çox gənc bəstəkarların öndə olduğunu dedi:** "Hərənin öz səsinə uyğun bəstəkarı var. Pis bəstəkar yoxdur, pis ifaçı var. Mən də gənc bəstəkarlara üstünlük verirəm. Onların adına gəldikdə isə əgər açıqlasam, siz tanımayacaqsız. Çünki çox gəncdirlər.

Bu gün onlar bilirlər ki, xalqa nə lazımdır. Bir də görürsən bir gənc elə mahnı yazır ki, adam heyran qalır, gözləmirsən ki, bu uşaq belə mahnı yaza bilər".

**Müğənni Təranə Qumral həm özünün, həm də Musa Musayevin daha çox hansı bəstəkara üstünlük verdiyi barədə danışıb:** "Hər ikimiz elə Musa Musayevin mahnılarına müraciət edirik. Şəxsən mənim üçün ən nüfuzlu bəstəkar Musa Musayevdir".

**Bəstəkar-müğənni Cabbar Musayev isə özünəməxsus açıqlama verib:** "Oxuya bilməyənlərin bəxti onda gətirir ki, cəmiyyətimizdə çoxlarının musiqi anlayışı yoxdur.

Bəstəkarlara gəldikdə isə hazırda mənim üçün ən tanınmış və populyar bəstəkar Könül Kərimovanın da sevdiyi, rəğbət bəslədiyi gənc bəstəçi Pərvizdir. Pərviz gənclərin zövqünü oxşayan musiqi yazmaqda peşəkardır. Mənim üçün indi bir nömrəlisi odur. Tanınmış müğənnilər belə onun bəstələrini əldə etmək üçün dəridən-qabıqdan çıxır, çalışırlar ki, onun qəbuluna düşsünlər. Pərvizdən başqa Ramalın da bəstələri çox nüfuzludur. Daha sonra bəstəkar Nazimin, Tunarın adını çəkə bilərəm. Digər müğənnilərə də bu barədə müraciət etsəniz, qeyd etdiyim bəstəkarların adını çəkəcəklər. Deyim ki, sevimli bəstəkarımızın, o cümlədən Aygün Səmədzadənin mahnıları hazırda o qədər də məşhur deyil. Çünki onun mahnılarını daha çox orta və yaşlı nəsil sevir".

❑ Xalidə GƏRAY

# Türkiyədə şouda maşın qazanan cütlük AzTV-dən qovulur




**Türkiyədə yayımlanan "Ben bilmem, eşim bilir" yarışmasında qalib olan AzTV-nin "Xəbərlər" proqramının aparıcısı Vüsalə Səidi və həyat yoldaşı kanal rəhbərliyi tərəfindən cəzalandırılıb.**

Bu barədə "Qafqazinfo"ya AzTV-dən məlumat daxil olub. Məlumatda qeyd edilir ki, aparıcı və həyat yoldaşı sözügedən proqramda rəhbərliyin icazəsi olmadan iştirak edib. Buna görə də AzTV rəhbəri Arif Alışanovun tapşırığı ilə qalib cütlükdən işdən çıxmaları ilə bağlı izahat alınıb.

Məsələ ilə bağlı Vüsalə Səidi danışmaq istəmədiyini deyib.

Qeyd edək ki, AzTV mətbuat xidmətinin rəhbəri Xatirə Qasımova da səhər saatlarından sözügedən məsələ ilə bağlı açıqlama verəcəklərini bildirsə də, kanaldan "Qafqazinfo"ya hadisə ilə bağlı heç bir məlumat verilməyib.

Məlumat saytda yayımlanandan sonra Xatirə Qasımova bildirib ki, bu barədə onlarda heç bir məlumat yoxdur: "Biz aparıcıdan izahat alınması məsələsini ilk sizdən eşidirik".

# Azərbaycanda saxta Mehdilər və reallıq...

## Kənan Rövşənoğlu: "Hədislərdə dəqiq şəkildə göstərilir ki..."

**Azərbaycan mətbuatının son günlər ən çox müzakirə etdiyi mövzulardan biri də heç şübhəsiz ki, Bakı şəhəri Kürdəxanı qəsəbə sakini Kazım Əzizin özünü İmam Mehdi elan etməsidir.**



Kazım Əziz

Tarixdə indiyədək özünü İmam Mehdi hesab edənlər çox olub. Kazım Əziz isə onların saxta olduğunu, həqiqi Mehdinin özünün olduğunu bildirib. O, hədislərdə imam Mehdiyə aid bütün əlamətlərin özündə olduğunu qeyd edir.

Qeyd edək ki, Kazım Əzizin çoxlu sayda kitabın müəllifi olduğu, bir çox qəzetin redaktoru vəzifəsində çalışdığı deyilir. Hazırda ona verilən təqaüd hesabına dolanır. İndiyə qədər verdiyi proqnozların təsdiqini tapmasını əlindəki sənədlərlə göstərməyə çalışır. Adı bir neçə qəzetdə hallanıb və verdiyi proqnozlar mediada yer alıb.

Ümumiyyətlə, Mehdilik anlayışı və yalançı peyğəmbərlik İslam tarixində geniş yayılıb. Peyğəmbərlik məsələsinin sona çatdığını bilindən sonra özünü imam elan edənlər meydana çıxdı. Bir vaxt Sudanda çox böyük mehdilik hərəkatı başlamışdı, ingilis hökuməti bunu çox çətinliklə yatırdı. İslam ölkələrində bu hərəkatlar zaman-zaman boy göstərib. XIX əsrin ortalarına kimi dini hərəkatlar aktual idi.

Bu günə qədər Azərbaycanda, eləcə də Türkiyədə özünü Mehdi elan edənlər az olmayıb. Sonunculardan biri 2 il öncə Bursada özünü 12-ci İmam Mehdi elan edərək pəncərəsinin qarşısından keçən hər kəsə tüfənglə atəş açmışdı. Açılan güllələrdən üç polis məmurunu yaralanmışdı...

**"İmam Mehdi (ə) nə vaxt zühur edəcək" sualını Ayətullah İbrahim Əmini belə cavablandırıb:** "İmam Mehdinin (ə) zühuru üçün müəyyən vaxt təyin edilməyib. Hətta Əhli-beyt imamları (ə) vaxt təyin edənləri yalançı adlandırıblar. Fuzeyl İmam Baqirdən (ə) "Görəsən, Mehdinin (ə.s) zühur edəcəyi zaman müəyyəndirmi" deyə soruşduqda imam cavabında üç dəfə "Zühur zamanını təyin edən yalan danışmışdır" deyib.

Əbdürrəhman ibn Kəsr nəql edir ki, mən İmam Sadiqin (ə) hüzurunda olduğum zaman Mehzem Əsədi içəri daxil oldu və dedi ki: "Canım sizə fəda olsun! Gözlədiyiniz haqq dövlətini quracaq olan Qaimi Ali Məhəmmədin zühuru gecikdi. Bu nə vaxt reallaşacaq? İmam bu cavabı verdi: "Onun zühur vaxtını təyin edənlər yalan danışır, tələsənlər həlak olacaq; yalnız təslim olanlar qurtuluşa çatacaq və bizə qayıdacaq".

Məhəmməd ibn Müslim isə belə nəql edir ki, İmam Sadiq (ə) mənə belə buyurdu: "Zühur vaxtını sənə təyin edəcək kimsəni yalançı olaraq adlandırmaqdan qorxma! Çünki biz (Əhli-beyt) onun zühuru üçün vaxt təyin etmirik".

Bu mövzuda əlavə daha 10 hədis nəql edilib. Hədislərdən isə bu nəticə çıxır ki, ümumiyyətlə imamın zühuru üçün nə Rəsulullah (s), nə də hər hansı imam (ə) müəyyən bir zaman təyin etməyiblər.

**Dini ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, tarix boyu özünü İmam Mehdi elan edən şəxslər olub. Bunun da əsas səbəbi odur ki, müsəlmanların inancına görə *(şiə və sünni mənbələrində müəyyən qədər fərqli olsa da)* İmam Mehdi gələcəkdə zühur edəcək:** "Məhz İmam Mehdinin (ə) qeybdə olması ideyası tarix boyu bu ada, yəni Mehdi (ə.f) olmağa iddia edənlərin ortaya çıxmasına səbəb olub. Müxtəlif dövrlərdə, müharibələr, işğallar zamanı Mehdi adı ilə ortaya çıxıb öndərlik edən insanlar olub. Məsələn, 19-cu əsrin 80-ci illərində Sudanda ingilis işğalına qarşı hərəkatın lideri özünü Mehdi elan etmişdi. Təbii ki, həqiqət deyildi, ancaq uzun illər bu şüarla işğala qarşı savaşmaq üçün Sudan xalqı "Mehdinin" arxasınca getdi. İraqın ABŞ tərəfindən işğalı zamanı Yəməndən olan bir nəfər özünü Mehdi elan etmişdi".

K.Rövşənoğlu dedi ki, bütün bunlar bir növ çətin zamanlarda ortaya çıxaraq xalqa İlahi yardımın olması, gözlənilən zühurun baş verdiyini göstərməyə çalışmaq və bir çox hallarda olduğu kimi, müqəddəs dəyərlərdən sui-istifadə etmək məqsədi daşıyır.

**Mehdi (ə.f) inancı İslamda dünyada ədaləti bərqərar edəcək İlahi hakimiyyətin qurulmasını ehtiva edir. Bu, bir çox təkallahlı inanclarda var:** "İslama görə, hədislərdə dəqiq şəkildə Qiyamətə az qalmış Məhəmməd Peyğəmbərin ailəsindən olan bir şəxsin zühur edərək dünyada ədaləti bərqərar edəcəyi qeyd olunur. Şiə və sünni mənbələrində bu cür onlarla hədislər nəql olunur. Ancaq zaman-zaman ortaya çıxan saxta Mehdi iddialarına da cavab var. Hədislərdə deyilir ki, zühur edəcək Mehdini hər kəs tanıyacaq və qəbul edəcək".

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

# Yekə qarnı ilə fəxr edən kişilər...

## Dəyanət Rzayev: "Azərbaycanda yekəqarın kişilər daha çox rüşvət alan, yeyib-içməyi xoşlayan, vəzifə adamlarının rəmzidir"

**Bu günlərdə "İnstagram" sosial şəbəkəsində kişilərin öz yekə qarınlarını nümayiş etdirməsi böyük marağa səbəb oldu. Şəkillərdən də görmək olurdu ki, yekəqarın kişilər öz bədənlərinin piyli olmasından kompleks yaşamır, əksinə, sanki bununla qürurlanırlar.**

Ümumiyyətlə, dünyanın bir çox ölkələrində bir çox kişilər yekəqarın olmaqları ilə fəxr edir. Məsələn, Çində kişilər yay aylarında küçə-bacada, ictimai yerlərdə köynək və maykalarının ətəklərini sinəyədək qaldıraraq qarınları açıq şəkildə gəzirlər. Beləliklə, bu minvalla qarınlarını xanımlara göstərərək "əsl kişi, zəhmətkeş və uğurlu insan" olduqlarını nümayiş etdirirlər. Məlumata görə, çinli xanımlar da arıq kişiləri tənbəl, yoxsul hesab edir, yekəqarınlı kişiləri isə əksinə, "işlək və uğurlu kişi" kimi qəbul edirlər.

Efiopiyadakı "Bodi" qəbiləsinin üzvləri də yekəqarın kişiləri daha cəsur, gözəl, müdrik və cazibədar sayırlar. Onların fikrincə, kişinin qarnı nə qədər böyük olarsa, həmin kişi bir o qədər ağıllı və nüfuzlu şəxsdir. Efiopiyalılar bu cür kişiləri "min" adlandırırlar və onlar qarınlarının yekəliyi ilə fəxr edirlər. Qəbilənin sevgisini qazanmaq üçün kişilər yarım il bir guşəyə çəkilərək yaşayır, qan və südün qarışığından ibarət "bodola" adlı içki içir, daim yeyir və qarınlarını yekəldirlər. Hər il Yeni il bayramında, yəni "bodi"lərin "Kael" dedikləri gündə kəndin ortasına yığışaraq qarınları ilə qürrələnir, rəqs edirlər. Həmin gün yekəqarın kişilərə "baxış" keçirilir, onların arasında ən yekəqarını seçilir və başına "tac" qoyulur.

**Piylənmənin ən təhlükəli forması - yekəqarınlılıq**

Bizim ölkəmizdə də yekəqarın kişilərin sayı kifayət qədərdir. Onların bəziləri kompleks hiss etsə də, bundan məmnun olanlar da var. Statistik məlumata görə, Azərbaycanda kişilərin yarıdan çoxu artıq çəkidən əziyyət çəkir. Əsasən də ucqar rayon və kəndlərdə nəinki yekəqarın kişilər, hətta bu tip qadınların da çoxluğunun şahidi oluruq.

Ekspertlər də bildirirlər ki, artıq çəki və piylənməyə meyllik yaradan faktorlar hipodinamiya (fiziki hərəkətlərin azalması), genetik amillər, asan mənimsənilən karbohidratların çoxlu miqdarda qəbulu, qidalanma pozğunluqlarıdır. Bunun fəsadları kimi çox zaman insanlarda bədənin ancaq qarın nahiyəsində piylənmə yaranır. Bu, piylənmənin ən təhlükəli formasıdır. Statistikaya əsasən bu cür piylənmə ürək xəstəlikləri, arterial təzyiq və səkərli diabetin olma riskini artırır.

Gün ərzində az hərəkət edən, idmanla məşğul olmayan, sağlam qidalanmayan kişilər daha kök olurlar. Xüsusilə də onların qarın bölgəsində artıq piylər toplanır.

**Günahkar milli mətbəximizdir?**

Diqqət etsək görərik ki, cəmiyyətimizdə 30 yaşından sonra həm qadın həm də kişilərdə sürətlə kökəlmə gedir. Bir çoxları bunu milli mətbəximizlə əlaqələndirir, yeməklərin yağlı olmasını əsas gətirirlər. Bugünlərdə Bakının qonağı olan güneyli azərbaycanlılarla söhbətimizdə bu məsələdən söz düşəndə onlar da bu amili vurğulamışdılar. Əslən təbrizli olan qonaqların sözlərinə görə, milli mətbəximiz çox ağır və kalorilidir, ət və yağdan həddən artıq istifadə edilir.

Azərbaycan Milli Kulinariya Mərkəzinin (AMKM) baş direktoru Tahir Əmiraslanov qarında piylərin yığılmasının milli xörəklərimizlə bağlı olmadığını dedi: "Milli mətbəximizdə hər bir şey tarazlaşdırılıb. Azərbaycana məxsus yeməklər demək olar ki, yağsızdır. Yeməklərimizin şahı olan plov belə yağlı hesab edilmir. Qayda olaraq 150 qram düyü üçün 40 qram yağ istifadə edilir. Düyü də bişəndə təxminən üç dəfə böyüyüb şişir, yağ da arada itir. Plovun qarası üçün meyvələrdən də istifadə edilir. Bu, orqanizm üçün çox xeyirlidir və yağları udur. Dünya mətbəxində də belədir, məsələn, özbəklər plovda yerkökündən çox istifadə edirlər. Lakin gəlin götürək Ukrayna borşunu. Bu yemək çox yağlıdır. Bu o demək deyil ki, Ukraynada hər kəs kök bədənlidir. İnsanlar yemək qaydalarına əməl etməlidirlər. Qədimdə babalarımız çiy quyruq yeyərlərmiş. Lakin onlar eyni zamanda çox işləyir, gün ərzində hərəkətli olurdular. Müasir dövrümüzdə insanlar oturaq həyat sürdüyündən qarın əzələlərində piyləşmə tez gedir. Qida qəbulunda karbohidratlardan çox istifadə edilir".


Dəyanət Rzayev

**Tanınmış psixoloq Dəyanət Rzayevin sözlərinə görə isə ölkədə bu barədə vəziyyət ildən-ilə başqalaşır:** "Azərbaycanda da bir zamanlar yekə qarınlı kişilər sanballı hesab edilirdilər. Yekəqarın görəndə daha çox rüşvət alan, yeyib-içməyi xoşlayan, vəzifə adamları gözümüzn qabağına gəlirdi. Hətta kök qadınlar da cəmiyyətimizdə sevilirdi. Məsələn, analar öz oğlanlarına daha çox kök bədənli qız almağa çalışırdılar. Lakin Azərbaycan Avropaya inteqrasiya olunduqdan sonra bu cür fikirlər yavaş-yavaş sıradan çıxmağa başladı. İnsanlar televiziyalarda yayımlanan xarici seriallara baxıb oradakı aktyor və aktrisaları təqlid etməyə, qarınlarının kök olmaması üçün idmanla məşğul olmağa, artıq çəkilərini atmağa başladılar. Bir vaxtlar "muskullar" dəb idi. Əzələlərini qabardan insanlar yaşlandıqca qarınlı olurlar. Buna görə də indi arıqlıq dəbdir. Araşdırsaq görərik ki, indi neçə-neçə ailələrdə idman, trenajor alətləri var".



**Psixoloq yekəqarın olmağın çox zaman ana bətnində formalaşdığını dedi:** "Uşaq ana bətnində embrion formasında olanda əsasən üç hissədən ibarət olur. Əgər embrionun orta hissəsi daha qalındırsa, gələcəkdə bu uşağın qarın nahiyəsi daha iri olur. Beləliklə, qarın nahiyəsinin böyük olması çox zaman malik olduğumuz fiziki quruluşdan asılı olur. Lakin sonradan qarın nahiyəsinin böyüməsi üçün çalışanlar da var. Məsələn, Afrikada yerləşən, müsəlmanların daha çox yaşadığı Mavritaniyada qadınların çəkisi ən azı 150 kq olmalıdır. Dünyada qəbul edilən gözəllik kriteriyalarına görə, qadın müəyyən bədən formalarına malik olmalıdır. Amma bu ölkədə qadının arıq olması rüsvayçı fakt kimi qəbul edilir. Bu ölkənin ən gözəl qadınları ən kök olanlar hesab edilirlər. Arıq qadınlara isə yeməyə çörək belə ala bilməyən yoxsul kimi baxırlar. Bu ölkədə evlənmə yaşına gələn qızlar ailə qurmaq üçün kök olmalıdırlar. Bunun üçün də özləri üçün xüsusi qida rasionu hazırlayırlar. Kişilər belə kök qadınları daha cəlbedici olduğunu düşündüklərini deyiblər. Bu cür ailələrdə körpə qızları çoxlu yedizdirməklə incidirlər, hətta onlar bunun üçün döyülürlər. Arıq qadın gərək o qəbilədə yaşamasın. Təsəvvür edin ki, bizdə bir qadın çölə lüt çıxarsa, ona qarşı hansı münasibət olarsa, o qəbilədə də arıq qadınlara o cür pis münasibət olar. Lakin sonradan bu xanımlar artıq çəkidən çox əziyyət çəkirlər. Qara ciyər, öd kisəsi yaşlandıqca bu qadınları çox incidir. Ancaq neyləyəsən ki, bu qəbilədə köklük samballılığın rəmzidir".

❑ Xalìdə GƏRAY


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**


## Başsağlığı

**İslam bəy, Almaz Əliqızı və Firəngiz xanım Günel xanıma atası Mehman bəyin vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**


## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT
N 102 (6130) 13 may 2015

**Neftin qiymәti dünya bazarında müvәqqәti nisbi yüksәlişdәn sonra yenidәn enmәyә başlayıb. Artıq Nyu-Yorkun NYMEX әmtәә birjasında keçirilәn elektron ticarәt әmәliyyatlarının gedişindә WTI neftinin qiymәti 1 barelә görә 0,02 dollar azalaraq 59,23 dollar tәşkil edib. ICE London qitәlәrarası birjasında Brent markalı neftin 1 barelinin dәyәri 0,08 dollar azalaraq 64,83 dollar olub. “Reuters” agentliyi xәbәr verir ki, dolların mәzәnnәsinin qalxması neftin qiymәtinin yenidәn enmәsinә sәbәb olub. Ekspertlәr bildirirlәr ki, neftin qiymәti aprelin 30-dan bәri әn çox itkiyә mәruz qalıb. Bununla belә, neft qiymәtlәrinin son 6 ayda 50 faizәdәk yüksәlmәsi ticarәtçilәrә gәlir gәtirir.**



# OPEK-dәn neftlә bağlı bәdbin proqnoz

## Ekspertlәr bildirirlәr ki, Azәrbaycan kimi iqtisadiyyatı neftdәn birbaşa asılı olan ölkәlәr yeni mexanizmlәr düşünmәlidir




Lakin fiziki bazarlarda bir sıra neft markalarının satışı zәiflәyib. “Reuters” bildirir ki, Qәrbi Afrika, Azәrbaycan vә Şimal dәnizindәn çıxarılan neft müştәri tapmaqda çәtinlik çәkir. Bu da xәbәr verir ki, OPEK-in gәlәn ay Vyanada keçirilәcәk görüşündә neft istehsalının azaldılması barәdә hәr hansı qәrarın qәbul edilәcәyi gözlәnilmir.

Neft İxrac edәn Ölkәlәrin Tәşkilatı olan OPEK isә qiymәtlәrlә bağlı proqnozlarını hazırlayıb. “The Wall Street Journal” OPEK-ә istinadәn yazır ki, növbәti 10 ildә neftin qiymәti 100 dollardan baha olmayacaq. Mәşhur nәşrin yazdığına görә, әn optimist ssenariyә görә neftin qiymәti 2025-ci ildә 75 dollar sәviyyәsindә proqnozlaşdırılır. Vә OPEK üçün hazırda 100 dollarlıq neft siyasәti gündәmdә deyil.

OPEK yanacağın qiymәtlәrini tәnzimlәmәk üçün hasilatın hәcmini dәyişmәk siyasәtindәn artıq әl çәkib. Görünәnlәr onu demәyә imkan verir ki, OPEK üzvlәri neftin hazırkı qiymәtlәrindәn mәmnundurlar. Vә iyun ayındakı toplantılarında neft hasilatının sәviyyәsini indiki sәviyyәdә saxlamağı planlaşdırır.

“Morgan Stanley” vә “Barclays” banklarının analitiklәri bildirirlәr ki, hazırda Atlantik okeanında Qәrbi Afrika vә Azәrbaycandan, habelә Şimal dәnizindәn hasil edilmiş neftlә dolu tankerlәrin sayı artır. Treyderlәr nefti tankerlәrdә saxlayaraq qiymәtin yüksәlmәsini gözlәyirlәr. Lakin müştәri gözlәyәn neftin hәcminin artması qiymәtin ucuzlaşmasına tәsir edәn amilә çevrilir. **“Atlantik hövzәsindә әlavә neft ehtiyatları var. Şimal dәnizindәn yüklәr saxlanılır, Nigeriyadan daha böyük hәcmdә neft var. Biz Liviyada hasil olunan neftin hәcminin dә artmasını müşahidә edirik, bu ölkәdә xaos hökm sürmәsinә baxmayaraq”**,- deyә Florida ştatında mәnzillәnmiş “Energy Analytics Group” agentliyinin rәhbәri Tom Finlon bildirir.

“Barclays” bankı isә mәlumat verir ki, mayın ilk hәftәsindә Nigeriyadan vә Anqoladan tәxminәn 80 milyon barel neft satılmamış qalıb. Bu, hәmin ölkәlәrdәki üç hәftәlik hasilatın hәcminә bәrabәrdir. Gәlәn ay İranla Qәrb arasında yekun nüvә razılaşması әldә edilmәlidir vә bundan dәrhal sonra İrana qarşı sanksiyalar götürülmәlidir. İran vәd edir ki, sanksiyalar götürülәn kimi gündәlik neft hasilatını 1 milyon bareldәn 4 milyon barelә qaldıracaq. Bu isә bazarda neft bolluğunu daha da artıra vә qiymәtlәrin ucuzlaşması üçün әlavә tәzyiq yarada bilәr. (virtualaz.org)

Yerli ekspertlәr isә bildirirlәr ki, Azәrbaycan kimi iqtisadiyyatı neftdәn birbaşa asılı ölkәlәr üçün çәtin olacaq. Bu kimi ölkәlәr iqtisadiyyatlarını vәziyyәtdәn çıxarmaq istiqamәtindә ciddi düşünmәlidirlәr. **Ekspert Natiq Cәfәrli** musavat.com-a açıqlamasında bildirib ki, OPEK-in daxilindә çox ciddi araşdırma institutları fәaliyyәt göstәrir. Bu institutlar isә illәrdir neft bazarında baş verәcәk proseslәrlә bağlı OPEK ölkәsinә vә dünya iqtisadiyyatına müәyyәn mәlumatlar verirlәr. Paralel olaraq, Ümumdünya Energetika Agentliyi kimi çox nüfuzlu bir beynәlxalq tәşkilatda OPEK-in proqnozlarına oxşar açıqlama verib. “Bildirilirdi ki, yaxın gәlәcәkdә, azı on ildә neftin qiymәtinin yüz dollara qalxmayacaq. Sәbәb çox sadәdir. Çünki hәm dünyada neftin hasilatında ciddi artım müşahidә olunur. OPEK-ә daxil olmayan ölkәlәrdә hasilat kәskin şәkildә artır. Әsasәn dә Amerika Birlәşmiş Ştatlarında hasilat artır. Dünyada on il bundan әvvәl istehsal olunan neftin az qala üçdә birini, 26-27 faizini ABŞ istehlak edirdi. On il bundan öncә әn böyük istehlakçı Amerika idi. Bu gün isә ABŞ artıq özü-özünü 80-85 faiz neftlә tәmin edir. Yaxın 5 ildә yüz faiz neftlә tәmin etmәsini, hәtta ABŞ-ın da ixracata başlayacağı haqqında mәlumatlar dolaşır. Konqresә müraciәt ünvanlanıb artıq. 1974-cü ildәn qadağa var idi ixracatla bağlı. Artıq bu qadağa da aradan qaldırılıb. Yәni Amerika kimi böyük bir oyunçu özü-özünü tәmin edәcәksә, bu, artıq bazarda gәrginliyi azaldır. Neftin önәmini azaldır. Ona paralel olaraq Rusiya da OPEK-ә daxildir, amma ildәn-ilә hasilatı artırır. Neftin qiymәtinin düşdüyü indiki şәraitdә daha çox nefti hasil etmәklә qiymәt endirimini az da olsa, kompensasiya etmәyi düşünür. Bundan başqa, dünyanın müxtәlif yerlәrindә yeni, çox böyük neft yataqları kәşf olundu. Şimal Buzlu Okeanda, o cümlәdәn Braziliyada, Meksikada, hәtta Afrika ölkәlәrinin bәzilәrindә, Avstraliyada neft kәşf olundu, neftin kәşf olunduğu sahәlәrin xәritәsi genişlәndi. Dünyada illәrdir, on illiklәrdir dominant olan bir teoriya- neft tükәnir iddiası bununla da sona gәldi. Artıq hamıya da mәlumdur ki, neftin potensialı dünyada çox böyükdür. İllәrlә, onilliklәrlә Yer kürәsindә neft istehsal oluna bilәr. Bu da neft bazarında olan gәrginliyin azaldılmasına xidmәt edәn әsas amillәrdәn biri oldu”,- deyә o vurğulayıb.

**Ekspertin sözlәrinә görә, digәr mәsәlә texnologiyaların inkişafıdır:** “Artıq neftin istehlak olunduğu sahәlәrdә yeni texnologiyaların tәtbiqi istehlakı xeyli dәrәcәdә azaldır. Mәsәlәn, әvvәl avtomobillәr, tәyyarәlәr, gәmilәr, daxili yanma mühәrriki olan mexanizmlәrin payına neft istehlakının 30 faizi düşürdü. İndi isә artıq bu rәqәm 20 faizә düşüb. Çünki avtomobillәr icad olunur, bazara çıxır. Elektriklә işlәyәn avtomobillәr bazarda artıq yer tutmağa başlayır. Hidrogenlә işlәyәn avtomobillәr satışa çıxarılır. Yәni elektrik enerjisinin azalmasında әvvәl neft çox böyük bir rol oynayırdı. Tәqribәn dünyada 19 faiz rol oynayırdı mazutdan, neftdәn alınan elektrik enerjisi. İndi isә әksinә, bu, getdikcә aşağı düşür. Ölkәlәr bәrpa olunan elektrik enerjisinә keçmәyә üstünlük verir. O cümlәdәn günәş enerjisinә, külәk enerjisinә, hәtta okean enerjisinә, qabarma vә çәkilmәdәn alınan enerjiyә üstünlük verilir. Yәni texnologiya hәddindәn artıq böyük sürәtlә inkişaf edir. Bu da neftin istehlakını da getdikcә azaldır”.

**Onun sözlәrinә görә, ümumilәşdirilәn mәlumatlar vә araşdırmalar onu göstәrir ki, neft erası, bahalı neft dövrü artıq arxada qalıb:** “İqtisadiyyatlarının böyük hissәsi neftdәn asılı olan Azәrbaycan kimi ölkәlәr düşünmәlidirlәr, yeni iqtisadi modellәr barәdә fikirlәşmәlidirlәr. Bunlar yeni modellәr üzәrindә işlәmәlidirlәr. Bir mәsәlәnin dә neftin qiymәtinә tәsir etdiyini unutmaq lazım deyil. Bu da İranın yenidәn bazara qayıtması ehtimalının yüksәk olmasıdır. OPEK ölkәlәri hesablayarkәn, onu da nәzәrә alıblar. Çünki İranın çox böyük potensalı var. 2,8 milyon barel gündәlik hasilatı olan İran cәmi bir ilә bunu iki dәfә artıra bilәr. Yәni dünyada üçüncü, dördüncü neft istehsalçılarına çevrilә bilәr. Bütün bu amillәr tәbii ki, yaxın gәlәcәkdә, yaxın illәrdә neftin qiymәtinin aşağı sәviyyәlәrdә qalmağını proqnozlaşdırmağa imkan verir”.

❑ RÖYA

# Azәrbaycanın iki әsas neft platformasında işlәr dayandırılır

## SOCAR-dakı mәnbә: “Neft platformasında işlәr planlı texniki xidmәt üçün dayandırılacaq”

**Britaniyanın neft nәhәngi Xәzәrin Azәrbaycan sektorundakı әsas neft platformalarından birindә işlәri “planlaşdırılmış texniki xidmәt”lә bağlı dayandırır.**

Virtualaz.org saytı xәbәri verir ki, bu barәdә “Reuters” agentliyi az әvvәl "BP-Azebaijan" şirkәtinin mәtbuat xidmәtinә istinadәn mәlumat yayıb.

Mәlumata әsasәn “Әsrin müqavilәsi” çәrçivәsindә istismar olunan “Azәri-Çıraq-Günәşli” blokuna daxil olan “Qәrbi Azәri” platformasında işlәr üç hәftәliyinә dayandırılır vә mayın sonlarında bәrpa edilәcәk.

Azәrbaycanın dövlәt neft şirkәti SOCAR-dakı mәnbә isә “Reuters”ә bildirib ki, bu ayın sonunda Xәzәrdә daha bir neft platformasında işlәr “planlı texniki xidmәt” üçün dayandırılacaq.

Şübhәsiz ki, bir-birinin ardınca iki neft platformasında işlәrin dayandırılması Azәrbaycanda neft hasilatının hәcminә mәnfi tәsir edәcәk. Bu isә qiymәtlәrin ucuzlaşmasının nәticәsi olaraq neft gәlirlәrinin azaldığı indiki bir vaxtda yaxşı xәbәr deyil. Hәrçәnd ki, BP Xәzәrdәki neft platformalarında mümkün qәza risklәrini aradan qaldırmaq üçün vaxtaşırı olaraq işlәri müvәqqәti dayandırır.

İlin әvvәlindәn Azәrbaycanda neft hasilatında nisbi artım müşahidә olunur, ilin birinci kvartalında 10.6 milyon ton neft hasil olunub. Ötәn ilin eyni dövründә isә hasilatın hәcmi 10.4 milyon ton idi. Hasilatın artmasının sәbәbi “Azәri-Çıraq-Günәşli” blokunda hasilatın artmasıdır. Ötәn il Azәrbaycanda neft hasilatının hәcmi 41.9 milyon ton olub, 2013-cü ildә isә hasilat 43.1 milyon ton idi.

Bir neçә il әvvәl BP-nin operatorluq etdiyi konsorsiumun hasilatı azaltması Azәrbaycan hakimiyyәtinin kәskin narazılığına sәbәb olmuşdu. Bundan sonra BP hasilatı artırmaq üçün әlavә investisiyalar qoymağa razılaşıb. 2013-cü ildә hasilat artsa da ötәn il yenidәn azalma başlayıb. Bu ilki proqnoza görә, neft hasilatı ötәn ilkindәn az - 40.3 milyon ton olmalıdır.

YENİ MÜSAVAT

Son səhifə

N 102 (6130) 13 may 2015

# 1 milyonluq paltar

Sabiq Amerika prezidenti Bill Klintonun sevgilisi olaraq tanınan Monika Levinskinin məşhur paltarı 1 milyon dollara satılıb. GAP markalı paltar Levinskinin prezidentlə münasibəti zamanı ləkələnmişdi. Amerikadakı bəzi mağazalar sözügedən paltarı 250 min dollara almaq istəsələr də, Levinski satmamışdı. Bugünlərdə paltarı 1 milyon dollara satmağa qərar verib. Hazırda 41 yaşı olan, Ağ Evdə staj keçən qadının prezidentlə münasibəti olduğu məlum olduqdan sonra məşhurlaşmışdı. "Vanity Fair"ə müsahibə verən qadın "prezidentlə aramda olanlara görə peşmanam. Artıq hər şeyi geridə buraxıb, mavi paltarı görmək istəmirəm". Levinski 1995-97-ci illərdə prezidentlə münasibət qurub.





## Dilənçinin sərvəti şoka saldı

Misirdə yoxsul olaraq tanınan yaşlı adamın iki binası və xeyli pulu olduğu məlum olub. Adının Kamil olmasından başqa haqqında heç kəsin heç nə bilmədiyi misirli yaşlı kişi uzun illərdir yaşadığı məhəllədə yoxsul və yalqız biri kimi tanınırdı. Məhəllədə Kamil əmi deyə çağırılan kişi hər kəsə pul və yemək yardımı edirmiş. Məhəllədəki qonşularından biri bir neçə gün əvvəl Kamil əmini bankda görüb. Dilənçi kimi tanıdığı kişini bankda gördüyü zaman təəccüblənən kişi bank işçiləri ilə söhbət zamanı onun dilənçi olduğundan bəhs edib. Bank işçiləri isə yaşlı kişinin banka pul depoziti qoymaq üçün gəldiyini deyiblər. Eşitdikləri qarşısında şoka düşən məhəllə sakini bunları bir neçə nəfərə danışıb. Yaşlı dilənçi haqqında araşdırma aparıldıqdan sonra onun müxtəlif banklarda 1 milyon dollardan çox pulu və 2 binası olduğu məlum olub.



## Okeanın üstündə uşaq doğuldu

Kanadalı bir qadının doqquz ay gözlədiyi körpə təyyarədə dünyaya göz açıb. Kanadanın Kalqari şəhərindən Yaponiyanın paytaxtı Tokio istiqamətində uçan "Air Canada" hava yollarına məxsus sərnişin təyyarəsində sürpriz doğum reallaşıb. Bu barədə şirkətin sosial şəbəkədəki səhifəsindən xəbər verilib. Adı açıqlanmayan 36 həftəlik hamilə sərnişin Sakit okeanın üzərində olarkən sancılanıb. Əvvəlcə uçuş kapitanı təcili eniş etməyi düşünsə də, daha sonra sərnişinlər içərisində olan həkim qadının köməyinə çatıb. Havada yaşanan tələsə və narahatlığa görə təyyarə Tokio hava limanına yarım saat gec enib. Ana və övladı təyyarənin hava limanına enməsinin ardınca xəstəxanaya aparılıb. Kloe adı verilən körpənin və anasının vəziyyətinin yaxşı olduğu bildirilir.

# Bu qadının buynuzu var

Çində yaşayan 101 yaşlı qadının alnından uzunluğu 6 santimetr olan buynuz çıxıb. "Daily Mail"in xəbərinə görə, Zanq Guozheng adlı qadının alnındakı çıxıntı həkimləri də təəccübləndirib. 101 yaşlı qadının alnında ilk dəfə şişkinlik yarandığı zaman heç kəs diqqət etməyib. Lakin şişkinlik zaman keçdikcə buynuza çevrilib. Həkimlər günəşdə çox qalan yaşlıların bədənində şişkinliklər ola bildiyini desələr də, belə bir halla heç vaxt rastlaşmadıqlarını bildiriblər.

Məlumat üçün bildirək ki, Zanq buynuzu olan ilk insan deyil. 2007-ci ildə Yəməndə yaşayan Salih Talib adlı 78 yaşlı kişinin də buynuzu olduğu haqda xəbərlər yayılmışdı. O da başında ilk vaxtlar şişkinlik olduğunu, daha sonra buynuza çevrildiyini deyib. Yaşlı kişinin başındakı buynuz uzanıb və 48,45 santimetr olduğu zaman çıxarılıb.





## 179,4 milyon dollarlıq şəkil

Nyu-Yorkda Christie's auksionunda Pablo Pikassonun "Əlcəzair qadınları" rekord qiymətə satılıb. Hərrac evinin rəsmi saytı şəklin 179 milyon 366 min dollara satıldığını bildirir. İncəsənət mütəxəssislərinin məlumatına əsasən bununla da şəkil hazırkı vaxta görə hərracda ən bahalı qiymətləndirilən sənət əsəri sayılır. Şəkil rəssam tərəfindən 1955-ci ildə çəkilib və Anri Matisin xatirəsinə həsr olunub. Şəklin ilkin dəyəri 149 milyon dollar qiymətləndirilirdi. Daha əvvəl olduğu kimi bu dəfə də bahalı əsərin yeni sahibinin adı məxfi saxlanılıb. Bundan başqa, hərracda Alberto Cakomettinin "İşarə edən adam" bürünc heykəli 141 milyon dollara satılıb. Bu da günümüzə kimi satışlarda heykələ verilən ən böyük məbləğdir. Bürüncdən olan 180 santimetrlik heykəl İsveçrə ustası tərəfindən 1947-ci ildə hazırlanıb. Cakomettinin bundan əvvəlki ən bahalı heykəli "Addımlayan adam I" olub. Heykəl 2010-cu ildə 104 milyon dollara satılmışdı.

## Qoroskop (13 may)



Səbuhi Rəhimli

QOÇ - Gələcək perspektivlərlə bağlı apardığınız bütün sövdələşmələriniz uğurlu olacaq. Odur ki, istənilən görüşdən imtina etməməlisiniz. Bu təqvim alqı-satqı üçün də düşərli ola bilər.

BUĞA - Gücünüzü potensialınızın inkişafına yönəldin. Hər bir məsələdə mövqeyinizi açıq göstərməyə çalışın. Həlledici məqamlarda tərəddüd etmək və ya qapalı olmaq ziyanlıdır.

ƏKİZLƏR - Öz düşüncənizin mütləq doğru olduğunu zənn etməyin. Sizin kimi insanlar üçün kənar məsləhətlər əksər hallarda effekt verir. Bunu anlayın ki, nicat tapasınız. Bu gün qazanmaq ehtimalınız yüksəkdir.

XƏRÇƏNG - Məsləhət görərdik ki, zehni işlərinizi azaldıb daha çox dincələsiniz. Fəaliyyətə isə ümumiyyətlə ara verin. Günün ikinci yarısını ailə-sevgi münasibətlərinə həsr edin.

ŞİR - Başqalarının adınızdan istifadə etməsinə imkan verməyin. Çalışın ki, öz işinizə özünüz qərar verəsiniz. Səhhətinizə fikir verməyi tövsiyə edən ulduzlar varlanacağınızı da bildirir. Amma səfərə çıxmayın.

QIZ - Büdcənizdə artım etmək üçün imkan qazana bilərsiniz. Bu səbəbdən də alacağınız əmanətləri əldə etmək üçün ciddi addımlar atmalısınsz. Bu gün "çağrılmamış qonaq" rolunda çıxış etməyin.

TƏRƏZİ - Yaxşı bir gün yaşayacaqsınız. İlahi qaydaları pozmadığınız təqdirdə bütün proseslərdən qazancla çıxacaqsınız. Bir qədər fəlsəfə və psixologiyaya vaqif olun ki, rəğbət qazanasınız.

ƏQRƏB - Maraqlı görüşləriniz gözlənilir. Ola bilsin ki, həsrətində olduğunuz şəxslərlə rastlaşasınız. Saat 14-17 arası yeni işlərlə bağlı səmərəli sövdələşmələriniz də mümkündür.

OXATAN - Əgər səhhətiniz qaydasındadırsa, başqa məsələlərdə nigarançılıq çəkməyəcəksiniz. Nahar ərəfəsində aldığınız dəvətlərdən imtina etməyə çalışın. Qiymətli əşyalarınızı bərk-bərk qoruyun.

OĞLAQ - Maddi rifahınız normal olsa da, münasibətlər zəminində müəyyən sıxıntılarla üzləşə bilərsiniz. Bu isə son vaxtlar güzəştə getməməyinizdən doğur. Nahardan sonra mənəvi istirahətə yer verin.

SUTÖKƏN - Göy qübbəsi süstlük içində olduğunuzu göstərir. Amma ümidsizləşməməli, həyata daha nikbin nəzərlərlə baxmalısınız. Kollektiv şəkildə mənəvi istirahət etmək istəyirsinizsə, tələsin.

BALIQLAR - Adətən ilin bu ərəfəsində Ay sizin bürcdə olanda mütləq səhhətlə bağlı problemlə üzləşirsiniz. Bunu nəzərə alıb qeyri-ənənəvi işlərdən uzaq olun. Yalnız səfərə çıxmaq uğurludur.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 13 milyon avroluq tətil

Çinin zəngin iş adamı şirkətində çalışan 6 min 400 nəfəri Fransaya tətilə aparıb. Qeyri-adi tətil üçün 140 hotel, 12 qatar kirayə götürülüb. Fransanın Nice şəhərindəki küçələrdə eyni vaxtda yeriyən 6400 nəfər maraqlı görüntülərin yaranmasına səbəb olub. Çinli iş adamı şirkətinin 20 illiyi münasibətilə Fransaya tətilə apardığı işçilərin sadəcə hotellərdə yerləşməsi üçün 13 milyon avro ödəyib. 1995-ci ildə qurulan şirkətin sahibi tezliklə "Forbes" jurnalındakı ən zəngin adamların siyahısına düşüb. "Tiens Group"un rəhbəri Li Jinyuan şirkətlərində 12 min nəfərin çalışdığını, işçilərin digər yarısını gələn il başqa bir ölkəyə tətilə aparacağını deyib.



Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.